# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 25 (3538) Cümə axşamı / 18-24 iyul 2024-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## "Azərbaycanlılar İranda milli azlıq deyil"

*Tanınmış Azərbaycan diplomatı, 1998-2009-cu illərdə Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuş Abbasəli Həsənov hafta.az-a ilk müsahibəsində son növbədənkənar prezident seçkilərində qalib gələrək İran İslam Respublikasının 9-cu prezidenti seçilmiş Məsud Pezeşkianla dostluq münasibətlərindən, onun bir Azərbaycan türkü kimi xalqına, millətinə, Vətəninə bağlılığından, indiyədək çalışdığı hər bir postda İrana gələn Azərbaycan Respublikası vətəndaşlarının problemlərinin həlli üçün əlindən gələni etməsindən və bundan sonra da Azərbaycan-İran münasibətlərinin canlanması üçün əlindən gələni edəcəyindən danışdı.*



**Abbasəli Həsənov,**
Azərbaycan Respublikasının İran İslam Respublikasındakı keçmiş səfiri

*Həmin olaydan sonra Pezeşkianla bütün rəsmi görüşlərimizdə də Azərbaycan türkcəsində danışırdım...*

Səh. 5

# Fərari ordunu diriltmək cəhdi

***E**rmənistan-ABŞ birgə təlimlərinə start verilib. "Eagle Partner 2024" adlı təlimlər Ermənistanda keçirilir. Təlimlərdə Ermənistan silahlı qüvvələrinin, ABŞ Quru Qoşunlarının Avropa və Afrikadakı birliklərinin və Kansas Milli Qvardiyasının hərbçiləri iştirak edirlər. Rəsmi məlumata görə, birgə təlimin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi, o cümlədən Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır. Bölgədə sülh prosesi ilə bağlı danışıqların intensivləşdiyi bir zamanda bu təlimlər nə məqsəd güdür, kimə qarşıdır? Bir tərəfdən sülh çağırışı edən Amerika o biri tərəfdən belə addımlar atmaqla nə demək istəyir?*



■ **Hərbi ekspert Ədalət Verdiyev bildirib ki, ABŞ-Ermənistan arasında keçirilən təlimlər miqyasına görə kifayət qədər kiçikdir və bu, Rusiyanın regiondan sıxışdırılıb çıxarılması üçün atılan addımdır.** Ekspert siyasi xarakter daşıyan belə təlimlərin video-görüntülərinə əsasən bu təlimlərdə heç bir yeni silahlı mübarizə metodundan söhbət getmədiyini, yeni silahlar, texnika, sursat vasitə və avadanlıqların tətbiq olunmadığını qeyd edib. Bildirib ki, 5-10 əsgəri aşağı-yuxarı qaçıran Əfqanıstanı biabırçı vəziyyətdə tərk edən ABŞ ordusunun XXI əsrin fərarisi olan Ermənistan ordusuna nəyi necə öyrədəcəyi böyük suallar doğurur.

Ekspert hesab edir ki, bu təlimlər, eləcə də 5 apreldə keçirilən Ermənistan-ABŞ-Aİ arasındakı məsləhətləşmələr birmənalı olaraq Ermənistan fərari ordusunun reablitasiyasına hesablanıb. Onun sözlərinə görə, ABŞ-nin Ermənistanı silahlandırması, onu yeni hərbi toqquşmalar üçün hazırlama və revanşist qüvvələrə dəstək vermək niyyəti əvvəldən də aydın idi.

"Belə təlimlər ötən il də keçirilmişdi. Bu il keçirilən tədbirlərdə neçə nəfərin iştirak etdiyi hələ ki, məlum deyil. Amma keçənilki təlimlərdə cəmi 85 nəfər Ermənistan hərbçisi iştirak eləmişdi". Ermənistanın sülh çağırışlarına adekvat reaksiya vermədiyini qeyd edən Ə.Verdiyev onların sülh niyyətlərinin yalnız boş bəyanatlar formasında müşahidə olunduğunu bildirir:

"Ermənistanın sülhlə bağlı konkret fəaliyyətinin nəticəsini görmürük. Əksinə, Paşinyan komandasında təmsil olunan Ermənistan Silahlı Qüvvələrin baş qərargah rəisi, Göycə qubernatoru və Təhsil Nazirliyi sülh prosesinə zərbə endirmək üçün irimiqyaslı təxribatlara yol verirlər. Erməni rəsmiləri hələ də Qazaxın kəndlərini Ermənistan ərazisi hesab edir, Azərbaycana qarşı güc tətbiqindən danışır, Şuşa texnoloji universitetinə İrəvanda fəaliyyət göstərmək üçün lisenziya verirlər. Bunlar onu göstərir ki, Paşinyan komandası daxilində məqsədyönlü şəkildə sülh prosesini pozmaq üçün fəaliyyət göstərən yüksək vəzifəli şəxslər var. Hansı ki, onları həmin vəzifələrə Paşinyan təyin edib".

Ə.Verdiev hesab edir ki, bu proseslər, o cümlədən davam edən təlimlər birmənalı olaraq Ermənistanın ABŞ, Avropa İttifaqı ilə birgə 5 apreldə keçirilən məsləhətləşmələrinin davamıdır. Eləcə də ABŞ-nin Ermənistanda yeni nüvə reaktoru yaratmaq məsələsi təzadlar yarada bilər:

"ABŞ-nin təqdim edəcəyi modul tipli atom elektrik stansiyalarında istehsal olunan enerjinin dəyəri kifayət qədər baha olacaq. Bu da Ermənistanda ciddi narazılığa səbəb ola bilər. Ona görə də ya dotasiyasını ABŞ özü ödəməli olacaq, ya layihə məhdud miqyasda tətbiq ediləcək, əməkdaşlığı nümayiş etdirmək xatirinə bir modul tipli stansiya ilə məhdudlaşacaq".

Ekspert qeyd edir ki, Ermənistana daim nüvə qaçaqmalçılığı, bakterioloji silahların tranziti üçün uyğun ərazi olaraq baxılıb. "Bu prosesdən vaxtilə Azərbaycana qarşı istifadə etməyə çalışıblar. Vaxtilə Ermənistan parlamentində Azərbaycana qarşı nüvə tullantılarından, çirkli bombaların tətbiq edilməsi də təklif olunurdu".

> *Bu təlimlər, birmənalı olaraq, Ermənistan fərari ordusunun reablitasiyasına hesablanıb*

> *ABŞ regionla bağlı planlarını təmin etmək üçün Ermənistandan istifadə edir*

> *Heç kəsə sirr deyil ki, həm ABŞ-nin, həm də Fransanın əsas məqsədlərindən biri Rusiyadan boşalacaq yeri tutmaqdan ibarətdir*

Ə.Verdiyev qonşu region ölkələrinin, xüsusilə də Rusiyanın Ermənistanda baş verən bu prosesləri narahatıq hissi ilə izlədiyini deyib. O, real addımlar atılmasa da rəsmi nümayəndələri səviyyəsində Rusiyanın proseslərə daha sərt münasibət bildirdiyini, bəzən də təhdid dilindən istifadə edildiyini vurğulayıb. İrana gəldikdə isə hakimiyyətin yeni dəyişdiyini qeyd edərək, hələ ki, yeni prezident Məsud Pezeşkianın andiçməsinin baş tutmadığına görə bu məsələlərin arxa planda qaldığını önə çəkib: "İran Ermənistanla sərhədlərində ABŞ əsgərlərini görməmək üçün doğru istiqamətlərdə fəaliyyətlər həyata keçirməlidir. Əks halda yaxın vaxtda Ermənistan İran sərhədində ABŞ əsgəri yerləşəcək".

■ **Hərbi ekspert Şair Ramaldanov deyir ki, Ermənistan-ABŞ arasındakı birgə münasibətlərə, eləcə də hərbi təlimlərə hər iki dövlətin daxili işi və sülhməramlı qüvvələrin fəaliyyəti fonunda baxıla bilər.**

Görünən odur ki, ABŞ-ın məqsədi Ermənistanın təhlükəsizliyi, erməni silahlı qüvvələrinin inkişafı yox, regiondakı maraqlarını təmin etmək üçün münbit platformaya sahib olmaqdır. Ekspert qeyd edir ki, Ermənistanla ABŞ arasında ikitərəfli münasibətlərinin inkişafı istiqamətində müəyyən sənədlərə imza atılıb və guya təhlükəsizliklə bağlı birgə fəaliyyətə yer ayrılıb. Onun sözlərinə görə, ABŞ təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Ermənistana silahlı qüvvələrin bərpasına yardım edəcəyini bəyan etmişdi.

Səh. 3

MEDİA

## 149 illik yol




■ Müasir Azərbaycan mediasının inkişaf sürəti, əldə etdiyi uğurlar və nəticələr ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin adı ilə bağlıdır

■ Azad, demokratikfikirli media formalaşıb

■ Ənənəsi, məqsədi olan jurnalistikamız var

■ Dövlətlə Azərbaycan mediası bir yerdə olduğu dövrdə bütün ideoloji təxribatlara lazımi səviyyədə cavab veriləcək

Səh. 3

GÜNÜN FOTOSU...




Paris Olimpiada ərəfəsində

GÜNÜN SİTATI

> *Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik*



**Mikael Forrest,**
Yeni Kaledoniyanın xarici işlər naziri

KARİKATURA




Fransa müstəmləkəçilik niyyətindən əl çəkə bilmir

## Pakistana qardaş səfəri

**Azər Badamov,**
Milli Məclisin deputatı

Pakistanın Azərbaycan Prezidentini yüksək səviyyədə qarşılaması bizim bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha sübut etdi.

Səh. 2

STATİSTİKA



■ **Dövlət Sosial Müdafiə Fondunun gəlirləri bu ilin 6 ayında proqnozla müqayisədə 4 faiz və ya 131 mln. manat çox olmaqla 3 mlrd. 408 mln. manat təşkil edib.**

Gəlirlərin tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 7 faiz və ya 187 mln. manat artaraq 2 mlrd. 763 mln. manat olub. Yanvar-iyun aylarında DSMF-nin xərcləri 3 mlrd. 419 mln. manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz və ya 410 mln. manat çoxdur.



Səh. 7

## Quru sərhədləri açılacaq?

**XƏBƏR LENTİ**

# YAP-ın İdarə Heyətinin iclası keçirilib



**İyulun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.**

İclasda ilk olaraq Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub:

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin, konstitusiya quruluşunun bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş uzaqgörən siyasəti sayəsində istər ölkə daxilində, istərsə də bütövlükdə bölgədə yeni reallıqlar yaranmış və ölkəmizin qarşısında yeni perspektivlər açılmışdır".

YAP Sədrinin müavini vurğulayıb ki, 2024-cü ilin fevral ayında keçirilmiş Zəfər seçkisində xalqın mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləməklə həyata keçirilən siyasətə, Heydər Əliyev yoluna dərin inamını bir daha nümayiş etdirib:

"Hazırda ölkəmiz daha bir mühüm ictimai-siyasi proses ərəfəsindədir. Müstəqillik tariximizdə ilk dəfə olaraq 2024-cü il sentyabrın 1-də ölkəmizin bütün ərazisində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatılır".

Sonra Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslərin siyahısı elan edilib və müzakirələrdən sonra təsdiq olunub.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov namizədlərə uğurlar arzulayaraq ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin onlara göstərdiyi yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə, yeni dövrdə qarşıda duran vəzifələrin icrası üçün var gücü ilə çalışacaqlarına əminliyini ifadə edib.



HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Pakistana qardaş səfəri

***Prezident İlham Əliyevin Pakistana dövlət səfəri bir çox məqamları ilə yadda qaldı. Dövlət başçısının şərəfinə havaya hərbi təyyarələrin qaldırılmasından tutmuş rəsmi qarşılanma mərasimindəki detallara qədər İslamabadın Bakı ilə əlaqələrin daha da inkişaf etdirilməsində, dərinləşdirilməsində nə dərəcədə maraqlı olduğunu göstərdi. Bu səfər həm də iki ölkə arasındakı münasibətlərin bir üst səviyyəyə qaldırılması baxımından mühüm əhəmiyyət daşıyır. Suallarımızı Azərbaycan-Pakistan parlamentlərarası dostluq qrupunun üzvü, millət vəkili Azər Badamov cavablandırır:***

## Müsahib



**Azər Badamov,**
Milli Məclisin deputatı

- Azərbaycan və Pakistan dost və qardaş ölkələrdir. Münasibətlərimiz tarix, mədəniyyət, dostluq və qardaşlığa əsaslanır. 11-12 iyul tarixlərində Prezident İlham Əliyevin Pakistana səfəri də qardaş ölkəyə edilmiş səfəri idi. Səfər dövlət başçımızın qarşılanma mərasimindən başlayaraq, başa çatana qədər çox yüksək səviyyədə təşkil olunmuşdu. Dövlət başçımızın şərəfinə havaya qarşılamaq üçün hərbi təyyarələr qaldırıldı. Baş nazir Məhəmməd Şahbaz Şərifin özü hava limanına dostu və qardaşı Prezident İlham Əliyevi qarşılamağa gəlmişdi. İslamabadın küçələri Azərbaycan və Pakistan bayraqları və dövlət başçımızın şəkilləri ilə bəzədilmişdi. Belə qarşılanma mərasimləri hər bir dövlət başçısının rəsmi səfərlərində təşkil olunmur. Pakistanın Azərbaycan Prezidentini yüksək səviyyədə qarşılaması bizim bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha sübut etdi. Bütün dünya bir daha əmin oldu ki, Azərbaycan və Pakistan hər zaman bir-birinin yanındadırlar. Dövlət başçısının Pakistana səfəri dünya mediası tərəfindən də geniş işıqlandırıldı. Bu, bir daha Prezident İlham Əliyevin Pakistana səfərinin dünya ictimaiyyəti üçün marağından irəli gəlir.

***- Prezident İlham Əliyevin Pakistana iki günlük rəsmi səfəri strateji münasibətlərdə hansı yeni mərhələnin əsasını qoydu və bu, hər iki ölkənin iqtisadi inkişafına hansı töhfələri verəcək?***

- Prezident İlham Əliyevin Pakistana səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni səhifə açır. Dövlətlərimiz arasında Strateji Tərəfdaşlığa dair Bəyannamə imzalanmışdır. O cümlədən iki ölkə arasında əməkdaşlığın əsasını imzalanmış, 38 sənədlə hüquqi baza yaradılmışdı. Prezident İlham Əliyevin ikigünlük səfəri çərçivəsində imzalanmış 15 yeni sənəd ölkələrimiz arasında əməkdaşlığı daha da genişləndirilməsi üçün imkan verəcəkdir. Düzdür, biz dost və qardaş olsaq da, ölkələrimizarası ticarət dövriyyəsi heç də mövcud potensiala uyğun deyil. Məhz ölkə başçımızın səfəri, imzalanmış yeni sənədlər və hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi ticarət dövriyyəsinin sıçrayışlı artmasına imkan verəcəkdir.

***- Məlum olduğu kimi, Azərbaycan, Pakistan, Türkiyənin dövlət rəsmiləri Qazaxıstanda keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı Zirvəsində bir araya gəldilər. Üçlü əməkdaşlıq mexanizminin qurulması nə dərəcədə realdır?***

*Pakistanın Azərbaycan Prezidentini yüksək səviyyədə qarşılaması bizim bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha sübut etdi*

- Azərbaycan-Türkiyə-Pakistan ayrılmaz üç qardaşdırlar. Astanada ŞƏT+ çərçivəsində dövlət başçıları arasında keçirilmiş üçtərəfli görüş bir olduğumuzun və bir yerdə müzakirə etməyə çoxlu mövzuların olduğunun göstəricisidir. Üç qardaş simvolu 44 günlük Vətən müharibəsində bütün dünya tərəfindən tanındı. Türkiyə və Pakistan Azərbaycana öz ərazilərini işğaldan azad edilməsində siyasi və mənəvi dəstək verməklə məğlubedilməz yeni bir güc vermiş oldu. Məhz qələbəmizi də üç dövlətin bayraqlarını bir yerdə dalğalandırmaqla ona görə qeyd etdik. Pakistan türk dövləti deyil, amma qəlbən türk dövlətləri ilə bağlıdır. Bu da ümumi gücümüzü artırır. Yəni, Pakistan nüvə silahına malik yeganə müsəlman ölkəsidir. Bu ölkənin yanımızda olması gücümüzü daha da artırır.

***- Prezidentin Pakistan səfərinin, əsasən, iqtisadi mahiyyət daşıdığı qeyd olunur. Məsələyə bu aspektdən diqqət çəksək, hansı qlobal layihələr üzərində birgə əməkdaşlıqlar nəzərdən keçirildi və qarşılıqlı iqtisadi inkişafın təmin edilməsi üçün hansı perspektivləri qeyd etmək olar?***

- Pakistan əhalisinin sayına görə dünyada 6-cı yerdədir. Xalqlarımız arasındakı dostluq dövlətlərimizin də daha da yaxınlaşmasını şərtləndirir. Bu baxımdan pakistanlılar Azərbaycanda özlərini çox rahat hiss edirlər. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi də xalqlarımız arasındakı dostluqa söykənməklə qarşılıqlı fayda əsasında inkişaf edir. Prezident İlham Əliyevin səfəri çərçivəsində müzakirə olunan mövzular arasında İslamabad, Lahor, Kəraçi və Bakı arasında təyyarə uçuşlarının müntəzəm təşkili, Şimal-Cənub nəqliyyat dəhlizi, Ələt Beynəlxalq Ticarət Dəniz Limanı və Orta dəhlizin verdiyi imkanlar əsas yer tutur. Ölkələrimiz hərbi sənaye, mədənçıxarma sənayesi, bərpaolunan enerji, humanitar və digər sahələr üzrə əməkdaşlığını genişləndirilməsinə hədəflənmişdir. Hesab edirəm ki, əməkdaşlığımızın genişlənməsi ölkələrarası münasibətləri daha da möhkəmləndirəcəkdir.

***- Azərbaycan Pakistana milyardlarla dollar sərmayə qoyacaq...***

- Azərbaycan Prezidentinin Pakistana səfəri çərçivəsində razılaşdırılmış məsələlərdən biri də İslamabadın yenidən qurulmasında ölkəmizin iştirakı ilə bağlıdır. Pakistanlılar İslamabadı Bakı kimi, Şərq və Qərbin üslubunu özündə əks etdirməklə yenidən qurulacaq müasirləşməsini istəyirlər. Azərbaycan Pakistana 2 milyard dollar sərmayə qoymağı planlaşdırır. Sərmayələrin qoyulması ölkələrarası iqtisadi bağları möhkəmləndirir və bir-birinə daha da yaxınlaşdırır. Məhz milyardlarla dollar sərmayənin yatırılması həm iqtisadi dividendlər gətirəcək, həm də ümumi gücümüzü artıracaqdır. Pakistanın hərbi sənayesi yaxşı inkişaf etmişdir. Biz bu sahədə əməkdaşlığımızı genişləndirməklə hərbi gücümüzü artıra bilərəyik. Pakistan işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində iştirak etmək istəyir. O cümlədən, Pakistanda yüngül sənaye sahəsi yaxşı inkişaf etmişdir. Bu sahə üzrə də əməkdaşlığımızı genişləndirə bilərik. Həm də istehsal etdiyimiz malları Pakistan bazarına çıxarda bilərik. Bu da qeyri-neft məhsullarımız üçün yeni bazar deməkdir. Neft-kimya sənayesi üzrə əməkdaşlıq imkanlarımız mövcuddur.

***- Azərbaycan-Pakistan dostluğu, qardaşlığı bölgəmiz üçün hansı üstünlükləri vəd edir, beynəlxalq miqyasda necə qarşılanır?***

- Azərbaycan və Pakistan dostluğu yüzillik bir tarixə əsaslanır və bu gün daha da möhkəmlənir. Biz inkişaf etdikcə bir-birimizə daha da bağlanırıq. Dünyada dövlətlər arasında ziddiyyətlər gün-gündən artmaqdadır. Biz türk dövlətləri birliyi və Pakistan bir yerdə olmaqla beynəlxalq gücümüzü artırırıq. Bir yerdə olmağımız, beynəlxalq platformalarda eyni mövqedən çıxış etməyimiz düşmənlərimizin bizə qarşı olan çirkin planlarının həyata keçirilməsinin qarşısını alır.

*Tahirə Qafarlı*

# Fransız zülmündən əziyyət çəkənlər Bakıda toplaşdı

***İyulun 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda birinci Qurultayın açılış mərasimi keçirilib. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat Qurultayın işində fəxri qonaq qismində iştirak edib.***



■ **Açılış nitqi ilə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı, Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunub.** Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələrə məruz qalıblar. Onlar arasında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edir.

Bugünkü tədbirdə həmin siyasi məhbusların bəzilərinin ailə üzvlərinin iştirak etdiklərini diqqətə çatdıran A.Abbasov vurğulayıb:

"Bakı Təşəbbüs Qrupu Fransa koloniyalarında yaşayan gənclərə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanı verən tələbə-təhsil təqaüdü elan edib. Artıq bu ildən başlayaraq həmin ərazilərdən olan gənclər bu təqaüddən yararlana bilərlər".

■ **Sonra çıxış edən Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep Bakıda belə bir Qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycanın Hökumətinə təşəkkürünü bildirərək deyib:** "Azərbaycan cəsarətli addımlar atır. BMT-nin çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə biz ilk dəfə Bakıda belə bir tədbir keçiririk".

O, bu Qurultayın tarixi xarakter daşıdığını qeyd edərək bildirib: "Biz kolonializmə qarşı birlikdə mübarizə apara bilərik. Bizim məqsədimiz dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltməkdir. Biz əlimizdən gələni edəcəyik ki, həmrəyliyimizi möhkəmləndirək, dünyada daha çox görünə bilək. Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir. Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir".

Daha sonra Qurultayda Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə dair 1 il ərzində keçdiyi uğur yolu barədə videoçarx nümayiş etdirilib.

İcraçı direktor Abbas Abbasov Qurultay iştirakçıları üçün Bakı Təşəbbüs Qrupunun birillik fəaliyyətinin yekununa dair qısa təqdimatla çıxış edib.

"Yeni Kaledoniyanın müstəqillik yolu və yeni çağırışlar" mövzusunda müzakirələrə davam edən tədbirdə digər iştirakçıların çıxışları dinlənilib.

■ **Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Bakıda keçirilən tədbirdə iştiraklarına görə Azərbaycan hökumətinə və buna şərait yaradan bütün insanlara təşəkkürünü ifadə edib.**

Deyib ki, Fransanın koloniyaları ilə bağlı bu Qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq. "Biz platformalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək.

*Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir*

*Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik*

*Səsvermə hüququnun dondurulması qərarı seçicilərə, mədəniyyətimizə və müqəddəratımıza qarşı olmaq deməkdir*

*Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür*

Səh. 4

# 149 illik yol

***Azərbaycanın Milli Mətbuatı 149 ildir yaranıb, bu gün də fəaliyyət göstərir. Milli Mətbuatımızın fəaliyyət sayğacı özünün bir əsr yarımlıq tarixini də yazıb. Milli Mətbuatımız özünün bu tarixini fərqli ictimai-siyasi formasiyaların senzurasına davam gətirməklə, milli, mənəvi dəyər və ənənələrini qorumaqla yaşada bilib. Müasir, qlobal dünyanın reallıqlarına adekvat olan və özünün operativlik, vasitəçilik, ötürücülük xarakteri ilə dünya gündəmini təqib edən mətbuatımız öz işini müasir informasiya istehlakçısının maraqlarına, tələblərinə uyğun formalaşdıra bilib.***




## Media

Mətbuat ictimai fikri formalaşdıran, düzgün informasiyalarla insanları düzgün istiqamətləndirən bir güc sahibi kimi, cəmiyyətin, dövlətin inkişafının təzahürü kimi ortaya çıxır.

■ **“Həftə içi” qəzetinin baş redaktoru Sevinc Seyidovanın sözlərinə görə, müasir Azərbaycanın Milli Mətbuatı özlüyündə bir çox cəhətləri birləşdirir.**



**Sevinc Seyidova**
“Həftə içi” qəzetinin
baş redaktoru

Buraya tarixi ənənə, milli dəyərlər, peşəkarlıq, müasirlik, cağdaş dünya ilə rəqabət və digər amillər aiddir. Milli Mətbuatımız 149 il ərzində üzləşdiyi bütün çətinliklərin öhdəsindən layiqincə gəlib, qalib dövlətin qalib mediası adını qazanmağı bacarıb. Təbii ki, bu prosesdə keçmişimizdən dərs götürməli olduğumuz məqamlar da az deyildir.

Baş redaktor vurğulayır ki, müasir Azərbaycan mediasının inkişafı, əldə etdiyi uğurlar və nəticələr ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin son 30 illik dövründə media daim dövlət dəstəyini, qayğısını öz üzərində hiss edib. Bu dəstək Milli Mətbuatımıza ayaqda durmağa, müasir dövrün çağırışları ilə ayaqlaşmağa, yeni trendlərə keçid prosesini uğurla başa vurmağa imkan yaradıb. Hazırda Azərbaycan mediası cəmiyyətdə olan birlik və ahəngdarlıq, qalib dövlət statusunun yaratdığı prinsiplərlə fəaliyyət göstərir. Burada milli ideyalar, maraqlar və Azərbaycan adının ön planda tutulması xüsusi önəm daşıyır.

S.Seyidova qarşıdakı dövrdə də Azərbaycan mediasının bir çox uğurlara imza ataraq müəyyənləşdirdiyi yolla inamla irəliləyəcəyi qənaətindədir.

■ **“Səs” Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev bildirib ki, Azərbaycan mediası 149 il yaşayıb, mübarizə aparıb və dünyanın ən layiqli, ən yaxşı media qrupları sırasında yer alıb.**

Mətbuatımızın keçdiyi keçməkeşli, ağır, rəngarəng yola nəzər salan baş redaktor müqayisələr apararaq Azərbaycan mediasının hansı nöqtədən başlayıb, necə çətin yollarla, hansı yerə qədər gəldiyi tarixin pillələrinə diqqət çəkib:

“Tarixə qısa bir ekskurs etsək görərik ki, 1875-ci ildə Azərbaycanda Həsən bəy Zərdabinin təşəbbüsü ilə yaranan “Əkinçi” maarifləndirici xarakteri daşıyırdı. Bu, siyasi şüurun yetişkənliyi, insanların maarifləndirməsi, ictimai şüurunun yüksəlməsindən xəbər verirdi. O vaxt bütün sahələrdə insanların maarifləndirilməsinə ehtiyac var idi. Çar senzurası olsa da, media həmin dövrdə öz işini gördü. O dövrün eybəcərliyini tənqid etməyi də bacardı. Buna rəğmən heç vaxt siyasi media ola bilmədi. Ciddi senzuraya baxmayaraq, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli kimi ədiblərin sayəsində Azərbaycan jurnalistikasında, mediasında tənqidi məqamlar olub. Ovaxtkı ədiblər hakimiyyəti, rejimi yumoristik, satira dili ilə tənqid ediblər. Bu da bir cəngavərlik idi. Satira jurnalistikanın əsas janrı olaraq bu günə qədər gəlib çıxıb.

Azərbaycan mediası Çar Rusiyasından sonra 23 aylıq dövrü azad cümhuriyyət mərhələsi kimi fəaliyyət göstərib. Azərbaycan mediası tam şəkildə azad fəaliyyət göstərsə də, heç vaxt inkişaf edə bilməyib. Həmin dövrün şərtləri, maddi, mənəvi potensialı başqa idi. Sovet dönəminin isə bir çərçivəsi, kommunist ideologiyası və öz tələbləri olsa da, yenə də tənqidçi jurnalistika inkişaf etmişdi, tənqid etməyi bacarmışdı. Mətbuatımız birbaşa SSRİ-nin rəhbərliyini tənqid etməsə də, yerlərdə çatışmazlıqları qaldırıb yazır, araşdırırdı.

Sonrakı dövrlərdə yeni bir era başladı: müstəqil Azərbaycan, müstəqil konstitusiya, müstəqil dövlət və müstəqil media. Həmin keçid mərhələsində, yəni sovet sisteminin dağılması, yeni dövlətin qurulması, müstəqilliyin qazanılması və yeni formasiyanın yaradılması özü ilə problemlər də gətirmişdi. Media azadlığa doğru gedirdi, amma digər tərəfdən medianın qarşısında başqa maneələr də var idi. Azərbaycan mediası bu günləri keçdi. Bu gün şükürlər olsun ki, artıq demokratik, azad mediadan danışırıq”.

B.Quliyev məhz 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Ulu Öndərin xarakterinə uyğun bir medianın formalaşdığını qeyd edib. O, vurğulayıb ki, azadfikirli, azadtəfəkkürlü Heydər Əliyev Azərbaycan vətəndaşını necə müstəqil, azad görmək istəyirdisə, necə bir vətəndaş cəmiyyəti, hüququ dövlət formalaşdırmaq istəyirdisə, elə bir media formalaşdırdı.

“SSRİ dövründən qalmış senzuranın qalıqlarını 1998-ci ildə ləğv etdi. Medianın qanuni bazası gücləndi. Ümumi baza formalaşandan sonra Azərbaycan mediası müstəqil dövlətin mediası kimi fəaliyyətə başladı. Azad, güclü, problemləri aça bilən araşdırmaçı, bütün janrları əhatə edən media formalaşdı”.

Baş redaktor sonrakı dövrlərdə dünyanın artıq yazılı medianın yox, internet, sosial medianın üzərində davam etdiyini qeyd edib. O bildirir ki, artıq dünya balaca bir monitorda cəmlənib, artıq vahid platformadan çıxış edə, eyni dildə danışmağı bacarır. Bu mənada hesab edir ki, bu gün medianın qarşıda duran tələbləri başqadır. “Azərbaycan mediası dünya mediasına transfer edə bilib. Bu transfer təkcə demokratik baxımdan deyil, mənəvi psixoloji cəhətdən də baş verib. Rəqabətə davamlı Azərbaycan mediası formalaşıb. Kütləvi informasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaranması, ardınca Media İnkişaf Agentliyinin yaranması və sair mühüm addımlar hər biri sırf Azərbaycan mediasının inkişafına hesablanıb. Bunlar medianın inkişafını dəstəkləyən dövlət layihəsidir ki, bu gün bu funksiyanı Medianın İnkişaf Agentliyi yerinə yetirir. Bu gün dövlət başçısının istəyinə uyğun olaraq azad, çatışmazlıqarı deyə bilən, yaxşı araşdırmalar aparan, problemlərin həlli yolunda yaxşı təkliflər verən mediamız var”.

B.Quliyev hesab edir ki, müstəqil Azərbaycanın mediası 2020-ci ildən sonra xarakter baxımdan da müstəqildir. Ona görə ki, əvvəllər Azərbaycan xalqı özünü müstəqil, suveren saya bilmir, torpaqlarının işğal olunması ilə əzilməsi hissi xalqın xarakterinə hopmuşdu:



**Bəhruz Quliyev,**
“Səs” Media Qrupunun təsisçisi
və rəhbəri

“2020-ci ildən sonra tam fərqli situasiya yarandı. Azərbaycan vətəndaşı necə özünü qalib xalqın, dövlətin vətəndaşı kimi hiss edirsə, eləcə də mətbuatımız da özünü qalib dövlətin mediası kimi hiss edir və bütün addımlarında bu nüanslar özünü göstərir.

1990-ci illərin əvvələrində bir tərəfdən mediaya, digər tərəfdən dövlətin torpaqlarına basqınlar olurdu. Azərbaycan xalqı, o cümlədən mediası ciddi sarsıntı keçirirdi. Bu gün biz o basqıdan azad olmuşuq. Azad, demokratikfikirli, xarakterli bir media formalaşıb. Mediamız hazırda dünyanın ən aparıcı mediaları ilə ayaqlaşa bilər. Bugünkü Azərbaycan mediasını təqdirəlayiq, müstəqil dövlətin layiqli peşəkar mediası kimi qiymətləndirə bilərəm”.

■ **Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin dekanı Vüqar Ziføroğlu Azərbaycan jurnalistikasının tarixi şərəfli yol keçdiyini deyib. O, ənənəsi, məqsədləri olan bir jurnalistikamızın olduğunu deyir:** “Azərbaycan jurnalistikası, sözün əsl mənasında, keçən əsrin əvvəllərində olduqca vacib bir missiyanı üzərinə götürüb. Həmin missiyanı daşıyanlar xalqın maariflənməsi, qəflət yuxusundan oyanması, cəhalət və qaraguruhu dağıtmaqdan başqa, eyni zamanda dövlətçilik ənənələrimizin formalaşması, milli ideologiyamızın qorunması məsələsində də ciddi rol oynadılar. Təsadüfi deyil ki, hətta sovet dönəmində də Azərbaycan mediası özünün milliliyi ilə seçilir, ənənələrini qoruyub saxlaya bilirdi. Mediamız yoluni şərəflə davam etdirdi. Azərbaycan jurnalistikası, sözün həqiqi mənada, öz qarşısında olan o vəzifələri, cəmiyyət qarşısında daşımalı olan məsuliyyət hissindən irəli gələn öhdəliklərini layiqincə yerinə yetirir. Biz hər zaman bunun şahidi olduq”.

V.Zifəroğlu müstəqillik əldə etdikdən sonra da Azərbaycan mediasının o proseslərin önündə olduğunu qeyd edib. Onun sözlərinə görə, milli mediamız maariflənmə, obyektiv gerçəkliklərin ortaya qoyulması məsələsində heç vaxt prinsiplərindən kənarda qalmadı, ona xəyanət etmədi:



**Vüqar Zifəroğlu,**
Bakı Dövlət Universiteti jurnalistika
fakültəsinin dekanı

“XXI əsrin öz gözləntiləri var. Biz informasiya müharibəsindən, rəqəmsal faşizmdən, irqçilikdən, rəqəmsal diplomatiyadan, süni intellektin jurnalistikaya təsirindən danışırıq. Bütün bu məqamlar müasir dövrün tələblərinə uyğun olaraq bizi məcbur edir ki, bu yeniliklərlə ayaqlaşaq. İnanıram ki, Azərbaycan jurnalistikası məhz klassik ənənələrini yaşatmaqla, müasir dövrün tələblərinə də cavab verəcək”.

V.Zifəroğlu jurnalistikamızın daim tənqid hədəfində olması ilə bağlı bəzi məqamlara da diqqət çəkib. Onun fikrincə, bu, jurnalistikanın üzdə, göz qabağında, eyni zamanda, ümumi, ictimai olması ilə bağlıdır.

O, məhz bu səbəbdən də jurnalistikaya münasibətdə fərqli fikirlərin olmasını məqbul hesab edir. Eyni zamanda, bəzən tənqid edən insanların sosial media ilə peşəkar jurnalistikanı, eləcə də professionalla həvəskar jurnalistləri qarışdırdığını deyib. Bildirib ki, bu gün biz bu cizgiləri aydınlaşdırmalıyıq. Bütün bunlar media savadlılığı məsələsini gündəmə gətirir:

“Cəmiyyət olaraq media savadlılığı məsələsinə önəm verməliyik. Hər kəs bilməlidir ki, sosial media nədir, professional jurnalistika nədir. Yaxud, peşəkar jurnalist kimə deyirlər, əsl xəbər nədir, şayiə nədir. XXI əsrin insanı bilməlidir ki, dezinformasiya nədir, etibarlı qaynaq nədir. Eyni zamanda anlamalıyıq ki, hər KİV kütləvi kommunikasiya vasitəsidir, amma hər kommunikasiya vasitəsi KİV deyil. Biz bu fərqi bilsək, etibarlı şəkildə məlumat almaq istəyiriksə, döydüyümüz qapını düzgün seçəcəyik”.

V.Zifəroğlu qeyd edir ki, sosial media peşəkar medianı üstələyib, çünki auditoriyası genişlənib. Onun fikrincə, sadəcə olaraq, hüquqi tənzimləmə mexanizmləri işlənməli və digər addımlar atılmalıdır ki, bu məsələlərə də aydınlıq gətirilsin. Digər tərəfdən qeyd edib ki, bizim sosial media ilə rəqabət aparacaq dərdimiz də olmamalıdır. Ona görə ki, biz professional xəbərin ünvanıyıq: “Mediamızın perspektivi ümidvericidir. Bu işdə dayanmaq olmaz. Yolumuzdan sapmamaqla, ənənələrimizi yaşatmaqla yolumuza davam etməliyik.

Mediamız öz xəttini müəyyənləşdirməli, özünü kənar müdaxilələrdən qorumalıdır. Sosial medianın təzyiqini professional media olaraq üzərimizdə hiss edirik. Bu, əsla bizim öz professional dəyərlərimizdən geriyə addım atmamız üçün əsas deyil. Peşəkar medianı hüquqi addımlarla tənzimləyiriksə, bir tərəfdən, sosial medianı da tənzimləməliyik. Tənzimləmə mexanizmləri öz yerinə otursa o zaman professional medianın dəyəri hansı funksiyanı daşıması məsələsi daha aydın görünəcək. Bir sözlə, müasir, arzu etdiyimiz media sağlam, aydın təfəkkürlü cəmiyyətin qurulması ilə sıx bağlıdır”.

■ **“Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirir ki, Milli Mətbuatımız üçün 149 il böyük tarixdir. O, dünyada Azərbaycandan da qədim media tarixinə malik ölkələr olsa da, milli mətbuatın qurulmasında ölkəmizin keçdiyi yolu özünəməxsusluğu ilə seçilən hadisə kimi dəyərləndirir:** “Azərbaycan Milli Mətbuatı milli ənənələr üzərində dayanan dövlətçilik sistemində oturuşmuş bir instituta çevrilib. Mətbuatımız 149 il ərzində peşə dəyərlərini milli ənənələr üzərində inkişaf etdirib, təkmilləşdirib. Eyni zamanda, milli dövlət quruculuğu və müstəqillik prosesinin mühüm institutlarından birinə çevrilib”.

> “
>
> *Müasir Azərbaycan mediasının inkişaf sürəti, əldə etdiyi uğurlar və nəticələr ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin adı ilə bağlıdır*
>
> *Azad, demokratikfikirli media formalaşıb*
>
> *Ənənəsi, məqsədi olan jurnalistikamız var*
>
> *Dövlətlə Azərbaycan mediası bir yerdə olduğu dövrdə bütün ideoloji təxribatlara lazımi səviyyədə cavab veriləcək*

Baş redaktor milli mətbuatımızın dövlətçilik sistemində institutlaşmasını onun gələcək qarantiyalarından biri hesab edib. Onun fikrincə, bu, mətbuatımızı yad təsirlərə düşməkdən sığortalayır, sabahkı inkişafı üçün yeni istiqamətlər kəsb edir.

“Mətbuatımız 149 il ərzində müstəqil, müasir seqmentlər yaradaraq özünü təkmilləşdirib. Biz çap mətbuatı ilə bərabər onlayn mediadan, audio-viziual media seqmentlərindən danışa bilirik. Bütün bunların təşəkkül tapmasının kökündə Milli Mətbuatımız dayanır.

Milli Mətbuatımız jurnalist peşəkarlığının, milli jurnalistlər dəstəsinin yetişməsi prosesində də bir məktəb rolunu oynayır. Azərbaycan mediası ictimaiyyətin, medianın, dövlət maraqlarının bir arada aparılmasında çox vacib funksiyanı yerinə yetirir. Ən qərəzli adamlar belə deyə bilməz ki,



**Aydın Quliyev,**
“Bakı xəbər” qəzetinin
baş redaktoru

Azərbaycan mediası birtərəfli inkişaf edir. Bu doğru olmaz. Milli Mətbuatımız mətbuatın, jurnalistikanın maraqlarını uca tutmağı bacarır, eyni zamanda dövlət mənafelərini nəzərə alır, ictimai mənafelərin sarsılmazlığı prinsipi ilə barışır. Bu üç əsas istiqamət arasında balans yaratmaq 149 illik mətbuatımızın ən yüksək nailiyyəti kimi dəyərləndirilə bilər”.

A.Quliyev hesab edir ki, Azərbaycan mətbuatının bundan da güclü mərhələləri olacaq. O, bunu mətbuatımızın indiyə qədər keçmiş olduğu fərqli formasiyalar müstəvisində önə çəkib. Xatırladıb ki, Azərbaycan mətbuatı Çar Rusiyasının, Sovet imperiyasının ideoloji mərhələsini, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə tarixini böyük uğurla adlaya bilib:

“Milli Mətbuatımız Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, separatizm ocağının tam şəkildə məhv edilməsi uğrunda gedən mübarizənin ən fəal subyektlərindn biri olaraq tarix yazıb. Bu mərhələlərin hər birində milli mətbuatımız nəinki öz simasını itirməyib, mərhələdən mərhələyə yeni intişar, təşəkkül formaları, təkmilləşmə xüsusiyyətləri formalaşdırıb. Bütün bu mərhələləri keçdikcə Azərbaycan mətbuatı yeni uğurlar qazanıb. Dinamik inkişafda olduğuna və milli ənənələrə, dövlət, ictimai maraqlara söykəndiyinə görə Azərbaycan mətbuatının gələcəyinə böyük qarantiya var. Bunun əsas yaradıcısı dövlətimizdir. Dövlətlə Azərbaycan mediası bir yerdə olduğu dövrdə bütün ideoloji təxribatlara lazımi səviyyədə cavab veriləcəkdir”.

***✍ Tahirə Qafarlı***

# Fərari ordunu diriltmək cəhdi

◂ əvvəli 1-ci səhifədə

“Məqsəd isə başqadır. ABŞ geosiyasi arenada, eləcə də Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyaya qarşı koalisiyaya rəhbərlik edir. Rusiya harada varsa, ABŞ orada öz maraqlarını genişləndirmək üçün çalışır və bu addımını dünyanın bir neçə yerində atır. O cümlədən bizim regionda gedən münaqişələrə nəzər salsaq, orada öndə ABŞ-ni görəcəyik. ABŞ Rusiyanın maraqları daxilində olan Cənubi Qafqazı hədəfə alıb. Regionda Rusiyanı sıxışdırıb-çıxarmaq, öz maraqlarını təmin etmək üçün Ermənistandan istifadə edərək gərginlik yaratmağa çalışır. Yəni ABŞ-ın hərbi təlimləri və digər addımları heç də erməni sevgisinə görə deyil. ABŞ öz istəklərini və regionla bağlı planlarını təmin etmək üçün Ermənistandan istifadə edir”.

Bütün siyasi proseslərin iqtisadi perspektivlərə bağlı olduğunu qeyd edən ekspert ABŞ-nin Orta Dəhliz yolundan pay qazanmaq niyyətini önə çəkib. Onun fikrincə, ABŞ bu layihəyə nəzarət etmək üçün mexanizmlər yaratmaqdadır. Ekspert bu mənada ABŞ-ın regiona sülh gətirməklə bağlı çıxışlarını qeyri-səmimi adlandırıb. O bildirib ki, hansısa beynəlxalq kürsülərdə guya sülhü qorumaq üçün addımlar atdığını bəyan edən ABŞ yalnız öz maraqları düşündürür və bunun üçün də gərginlik yaradır:

“Ona görə də ABŞ Ermənistanın istəklərini, siyasətini nəzərə alaraq bundan istifadə edib Rusiyaya qarşı böyük kampaniyaya başlayıb. Azərbaycan öz torpaqlarını azad edəndən sonra yaxında sülh perspektivləri göründüyü halda ABŞ reallıqda beynəlxalq normalar çərçivəsində sülhün bağlanmasına əngəllər yaradır. Hətta sülh müqaviləsi bağlansa da, burada boşluqlar saxlamağa cəhd edir. ABŞ-nin məqsədi Rusiyanı Ermənistandan çıxarmaq və burada öz hegemonluğunu təmin etməkdir”. Ş.Ramaldanov hesab edir ki, Rusiya ilə ABŞ-ın maraqlarının toqquşması region üçün təhlükələr yaradır. Əlavə oyunçuların regiona gətirilməsi isə münaqişənin yenidən alovlandırılmasına xidmət edir ki, bu da Azərbaycanın maraqlarına ziddir.

“ABŞ-nin, Avropa İttifaqının ən böyük missiyası Ermənistandadır. Avropa missiyası qıcqırmış xəmir kimi günü gündən böyüyür. Avropa missiyasının defakto hərbi baza kimi fəaliyyət göstərməsinin elementlərini görürük. Adı “mülki missiya” olan bu qrupun hansı maraqlar güddüyü bəllidir. Ermənistanı Rusiya deyil, Fransa, ABŞ silahlandırır və getdikcə həmin ölkələrin təsirinə düşür. Alınan silahların idarə edilməsi, mütəxəssislərin hazırlanması istiqamətində həmin missiya və təlimlər üzərindən işlər aparılır. Elan olunmasa da, Ermənistanda ABŞ-nin böyük kəşfiyyat orqanları işləyir. Bu proses təlimdən-təlimə deyil, daim keçirilir”.

Ekspert hərbi təlimlərin ardıcıl keçirilməsini ABŞ-nin regionda yerləşmək üçün fəaliyyətini daha aktiv fazaya keçirməsi ilə əlaqələndirib: “ABŞ-nin bu fəaliyyəti region üçün çox təhlükəlidir və bu təhlükənin cizgilərini görürük. Ermənistan ərazisinin Ukrayna, Suriya paralelləşdirilməsi region üçün təhlükəli məqamdır və təbii ki, Azərbaycana da təsirsiz ötüşməyəcək”.

O ki qaldı ABŞ-nin Ermənistanda yeni nüvə reaktoru yaratması ilə bağlı məsələyə, ekspert bunu da ABŞ-nin proqramının tərkib hissəsi adlandırır: “Ermənistan AES Rusiyadan asılı vəziyyətdədir. Hazırda Ermənistanın bütün fəaliyyəti və həyatı Rusiyaya bağlıdır. Yeni reaktorun qurulması Rusiyadan asılılığı azaltmaq üçündür.

O ki qaldı Ermənistanın seysmik zonada yerləşməsi və nüvə qaçaqmalçılığı kimi problemlərin ABŞ tərəfindən nəzərə alınmamasına, bu, ABŞ üçün maraqlı deyil. ABŞ bu regiondan uzaqda yerləşir. Əgər sabah hansısa faciə baş versə, bunun ABŞ-a təsiri olmayacaq. Görünən budur ki, Ermənistan həm də imperialist qüvvələrin bölgədə toplaşması üçün qara yara olaraq qalır. Düzgün xətt seçməsə, o yara onun özünü məhv edəcək”.

■ **Politoloq Rəşad Bayramovun qənaətincə, ABŞ-nin Ermənistanla birgə hərbi təlimlər keçirməsi qərarı olduqca absurd qərardır.** Belə ki, hələ də rəsmi olaraq KTMT üzvü olan, yəni başqa sözlə desək Rusiyanın lideri olduğu bir hərbi Alyansın üzvü olmaqda davam edən bir dövlətlə hərbi təlimlər keçirmək və bununla da həmin ölkənin hərbi cəhətdən möhkəmləndirilməsinə xidmət etmək heç bir halda başadüşülən deyil. Eynilə Fransanın faktiki olaraq NATO silahlarını və texnikasını Ermənistana ötürməsi kimi bu tip təlimlərlə bağlı qərarların qəbulu da belə bir fonda yalnış nəticələrdir.

Politoloq qeyd edir ki, Ermənistanın davamlı olaraq silahlandırılması və bu cür təlimlərin regionda sülhə töhfə vermədiyi, əksinə revanşistlərin iştahasını artırdığı hər kəsə aydındır: “Bunları bir kənara qoysaq, istər ABŞ, istərsə də Fransa başa düşməlidir ki, daimi hakimiyyətlər olmur. Xüsusilə iqtisadi cəhətdən Rusiyadan asılı vəziyyətdə olan bir dövlətdə hakimiyyət dəyişikliyi və hakimiyyətə Rusiyaya yaxın bir adamın gəlmə ehtimalı hər zaman yüksəkdir. Odur ki, indi Ermənistanın NATO silahları ilə təchiz edilməsi və hərbi təlimlərlə peşəkarlığının artırılması sabah NATO-Rusiya qarşıdurmasında onların özünə qarşı işləyə bilər. Görünən odur ki, Rusiyanı regiondan sıxışdırıb çıxarmaq istəyən güclər öz məqsədlərinə çatmaq üçün bu cür avantüranı da özləri üçün məqbul hesab edirlər”. Politoloq bildirir ki, Rusiya ilə münasibətlərin kəsilməsi üçün Ermənistana davamlı təzyiqlər edən ABŞ təbii ki, bunun müqabilində Ermənistan üçün nələrisə etməlidir. Onun sözlərinə görə, ABŞ-nin Ermənistanın enerji təhlükəsizliyinin təmin olunması üçün çabalarının ardınca birgə hərbi təlimlər də keçirməsi Ermənistan ictimaiyyətinə ABŞ-ın təhlükəsizlik zəmanəti verməsi ilə bağlı mesaj kimi qəbul oluna bilər: “Təbii ki, ABŞ kimi bir güc hər hansı addım atarkən ilk növbədə öz maraqlarından çıxış edir. Elə bu səpkili təlimlərdə də məqsəd bir tərəfdən Ermənistanla Rusiya arasında daha dərin uçurum yaratmağa, digər tərəfdən isə ABŞ ordusunun yerli şəraiti daha yaxşı mənimsəməsinə hesablanıb. Heç kəsə sirr deyil ki, həm ABŞ-ın, həm də Fransanın əsas məqsədlərindən biri Rusiyadan boşalacaq yeri tutmaqdan ibarətdir. Başqa sözlə desək, Rusiya hərbi bazasının Ermənistan ərazisindən çıxarılmasından sonra orada yerləşəcək ABŞ hərbçiləri bu təlimlərlə indidən kəşfiyyat işini həyata keçirilər”.

R.Bayramov hesab edir ki, ABŞ-nin Cənubi Qafqaz siyasəti Ağ evə kimin rəhbərlik edəcəyindən asılı olmayaraq dəyişməyəcək: “Söhbət təkcə Rusiyadan deyil, həm də Çindən gedir. ABŞ özünün Cənubi Qafqaz siyasətinə Orta Asiya ölkələrinə çıxış əldə etmək imkanı kimi baxır. Orta Asiyaya təsir baxımından isə Rusiya tək deyil, burada həm də Trampın prioritet olaraq zəifləldilməsinin vacibliyini qeyd etdiyi Çin də var. Odur ki, həm Cənubi Qafqaza Rusiyanın, həm də Orta Asiyaya Rusiya və Çinin təsir imkanlarını azaltmaq üçün bu regionda təmsil olunmaq və Çinin “bir kəmər bir yol” layihəsinin Orta dəhlizinə nəzarət etmək hər zaman ABŞ üçün prioritet olaraq qalacaq”.

Politoloq bunun müqabilində Rusiyanın atacağı addımların maraq doğurduğunu qeyd edib. Onun sözlərinə görə, Ermənistanın bu günə qədər Rusiyanın qırmızı cizgilərini aşacaq addımlar atmaması, quru bəyanatlardan o yana keçməməsi, Ermənistandakı Rusiya hərbi bazalarının çıxarılması ilə bağlı isə bircə dəfə də olsun eyham vurmaması Rusiyanı da hələ ki, bəyanatlara bəyanatlarla cavab verməyə məcbur edir. “Ermənistan tərəfdən bu istiqamətdə konkret addımlar atılacağı halda, şübhəsiz, Rusiya tərəfindən, başı Ukrayna müharibəsinə qarışsa da, müvafiq addımlar atılacaq. Söhbət hərbi gücdən deyil, iqtisadi rıçaqlardan gedir. Bunun üçün isə Rusiyanın əlində kifayət qədər imkanlar var”. İrana gəldikdə isə R.Bayramov indiyə qədər aparılan siyasətin davam etdirildiyini deyir. O, İranın Ermənistandakı səfiri Mehdi Sübhaninin son açıqlamalarını, “Qarabağ ermənilərinin ərazilərimizdən zorla çıxarılması” haqqında bəyanatını, Zəngəzur dəhlizi ilə bağlı dediklərinin buna əyani sübüt olduğunu deyib:

“Görünən odur ki, İran və Qərb arasında hansısa gizli danışıqlar mövcuddur. İrana bu gün öz iqtisadi vəziyyətini düzəltmək üçün sanksiyaların götürülməsi hava və su kimi lazımdır. Odur ki, Rusiyanın Ermənistandan çıxarılması fonunda Ermənistanın enerji təminatında yer almaq və eləcə də Avropanın enerji təminatında müəyyən qədər paya sahib olmaq müqabilində İranın Qərbin Ermənistanda yerləşməsinə göz yumması kifayət qədər real ehtimal hesab oluna bilər”.

***✍ Tahirə Qafarlı***

# "Kölgə iqtisadiyyatı"na qarşı mübarizə

## Layihə

***Liberal və dayanıqlı iqtisadiyyat azad rəqabətin üzərində qurulur. Qeyd edək ki, dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün şəffaflığın təmin edilməsi əsas şərtdir. Bu istiqamətdə vacib amillərdən biri də kölgə iqtisadiyyatının qarşısının alınmasıdır. Kölgə iqtisadiyyatı rəsmi statistika tərəfindən uçota alınmayan, ictimai qaydalardan kənar qurulmuş iqtisadi münasibətlərdir. Təsadüfi deyil ki, "gizli iqtisadiyyat"ın ümumdaxili məhsulda payının yüksək olması dünyada iqtisadi təhlükəsizliyin mənfi təzahürlərindən biri kimi qiymətləndirilir.***



Məlumat üçün bildirək ki, "kölgə iqtisadiyyatı"nın fundamental öyrənilməsinə XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəlində başlanılıb. İlk dəfə "kölgə iqtisadiyyatı" özünü 1930-cu illərdə İtaliya mafiyasının Amerika iqtisadiyyatına daxil olması ilə büruzə verib. Həmin vaxtdan "kölgə iqtisadiyyatı" hüquq-mühafizə orqanlarının problemindən iqtisadi və ümumdövlət probleminə çevrildi. 1980-ci illərdən başlayaraq "kölgə iqtisadiyyatı" problemlərinin müxtəlif aspektləri müntəzəm keçirilən konfranslarda müzakirə edilməyə başlanıldı. Bununla yanaşı, müxtəlif ölkələrin parlamentləri və hökumətləri tərəfindən "kölgə iqtisadiyyatı"nın öyrənilməsi üzrə işçi qruplar yaradıldı. Bu cür qruplar hazırda Avstriyada, Fransada, İngiltərədə, Portuqaliyada, Hollandiyada, İtaliyada və digər bir sıra ölkələrdə mövcuddur.

"Kölgə iqtisadiyyatı"nın mənfi tərəfləri həm də onun rəsmi iqtisadiyyatda istehsal prosesinə pozucu təsirinin mövcudluğundan, qanunun tələbləri çərçivəsində fəaliyyət göstərən təşkilatlara müxtəlif növ maneçilik törədilməsindən və onların bu səbəbdən iqtisadi-maliyyə vəziyyətinin pisləşdirilməsindən, işçilərin əməyə motivasiyanın azalmasından və s. ibarətdir.

Azərbaycanda da "kölgə iqtisadiyyatı"na qarşı mübarizə dövlət siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyev rəhbərliyi altında kölgə iqtisadiyyatının yaratdığı fəsadların aradan qaldırılması, vergidən yayınma hallarının qarşısının alınması və bazarda sağlam rəqabətin təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Belə ki, 2018-ci ilin əvvəllərindən etibarən Azərbaycanın vergi sistemində keyfiyyətcə yeni mərhələ başlanıb. İslahatların əsas məqsədi ilk növbədə, vergiödəyicilərinin vergi orqanlarına olan inamının artması, vergiödəyiciləri ilə vergi orqanları arasında şəffaf münasibətlərin qurulması, vergi mədəniyyətinin və intizamının gücləndirilməsi idi.

2019-2020-ci illərdə vergi qanunvericiliyində qeyri-leqal iqtisadiyyatın aradan qaldırılması və iqtisadiyyatın şəffaflaşdırılması, sahibkarlığın inkişafının dəstəklənməsi, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı bir sıra dəyişikliklər həyata keçirildi. Əsas hədəflər qeyri-leqal dövriyyəni aşkar etmək, sahibkarları öz gəlirlərini "ağartmağa" sövq etmək, iş yerlərini leqallaşdırmaq, biznes dövriyyələrinin sənədləşdirilməsinə nail olmaq və bununla da "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasına zəmin yaratmaq idi.

> *Son illərdə büdcəyə daxil olan vəsaitlərin proqnozlaşdırılandan 2 milyard manat çox olması "kölgə iqtisadiyyatı"nın həcminin azaldılması ilə birbaşa əlaqədardır*
>
> *Dünyada elə bir ölkə yoxdur ki, oranın iqtisadiyyatında dövriyyə tamamilə şəffaf şəkildə təmin edilsin*
>
> *Bəzi şirkətlər vergidən yayınmaq üçün işçilərinə əməkhaqlarının ya hamısını, ya da böyük hissəsini qeyri-rəsmi şəkildə verir*

■ **VI çağırış Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib ki, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması büdcəyə daxil olan vəsaitlərin həcminin artmasına səbəb olub:** "Son illərdə büdcəyə daxil olan vəsaitlərin proqnozlaşdırılandan 2 milyard manat çox olması "kölgə iqtisadiyyatı"nın həcminin azaldılması ilə birbaşa əlaqədardır. Əgər bu istiqamətdə görülən tədbirlər intensivləşdirilərsə, büdcəyə qeyri-neft sektorundan daxilolmalarda milyardlarla manat artım müşahidə ediləcək". Ekspert qeyd edib ki, "kölgə iqtisadiyyatı"nın qarşısının alınması "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əsas istiqamətlərdən biri kimi müəyyən edilib:

"Bu sahədə son illər aparılan islahatlar ölçüləbilən və daha real nəticələrin əldə edilməsinə şərait yaradıb. Xüsusilə son dövrlərdə 200 mindən çox yeni əmək müqaviləsinin bağlanması kölgə iqtisadiyyatının ümumdaxili məhsuldakı payının azalmasına imkan verib. Bu, ölkədə həyata keçirilən iqtisadi siyasətin ümumi hədəflərinə uyğundur. Unutmaq olmaz ki, "kölgə iqtisadiyyatı"nın həcminin azaldılması Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş əsas tapşırıq və göstərişlərdən biridir.

Ölkədə bunun üçün siyasi iradə var və möhkəmdir. Təbii ki, bu sahədə müsbət nəticələrin əldə olunması xüsusən kiçik və orta sahibkarlığın inkişafı üçün yeni imkanlar yaradır. "Kölgə iqtisadiyyatı"nın həcminin azaldılması sahibkarlığın inkişafı, vətəndaşların məşğulluğunun təmin edilməsi, eyni zamanda sağlam rəqabətin gücləndirilməsi hesabına istehlak bazarında qiymətlərin optimallaşdırılması baxımından çox vacibdir. Ona görə də "kölgə iqtisadiyyatı"na qarşı aparılan mübarizə təkcə sahibkarlara deyil, bütün vətəndaşlara faydalıdır".

■ **İqtisadçı-ekspert Fuad İbrahimovun fikrincə isə dünyada elə bir ölkə yoxdur ki, oranın iqtisadiyyatında dövriyyə tamamilə şəffaf şəkildə təmin edilsin:**

"Hər bir ölkədə "kölgə iqtisadiyyatı" mövcuddur. Sadəcə olaraq onun xüsusi çəkisində fərqlər mövcuddur. Məsələn, Yaponiyada və Cənubi Koreyada bu rəqəm çox cüzidir. Qardaş ölkə Türkiyədə kifayət qədər yüksək səviyyədədir. Makroiqtisadi tarazlığı tam şəkildə bərqərar etmək, sağlam mühitli iqtisadiyyat yaratmaq üçün "kölgə iqtisadiyyatı"ndan xilas olmaq lazımdır. Ayrı-ayrı şəxslərin gizli qazancına son qoyulmalıdır. Belə olan halda dövlət qazanacaq. Dövlətin qazanması isə əhalinin sosial rifahının yüksəlməsi ilə nəticələnəcək".

F.İbrahimov Azərbaycanda "kölgə iqtisadiyyatı"nın xüsusi çəkisinin azalması üçün hökumət tərəfindən son zamanlar kifayət qədər işlər görüldüyünü vurğulayıb:

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

"Azərbaycan bu sektorda hazırda Qərb dünyasında tətbiq olunan müasir modelləri istifadə edir. Adicə ƏDV geri qaytar proqramı bütün məlumatlı vətəndaşlar tərəfindən istifadə edilir. Bu proqram sayəsində vətəndaşların özü "kölgə iqtisadiyyatı"na qarşı mübarizə aparır. Nəğdsiz ödənişlər "kölgə iqtisadiyyatı"nın ağardılmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ölkə ərazisində kartla birbaşa ödənişlərə böyük bonuslar verilir. Bunlara baxmayaraq böyük ticarət mərkəzlərində hələ də güzgü metolodogiyası işləmir. Yeni ölkəyə daxil olan mal və onun satışını təmin edən statistik məlumatlar yoxdur. Bu o deməkdir ki, ölkədə "gizli iqtisadiyyat" var. Lakin bu kontekstdə olan layihələri artırmaqla tamamilə "kölgə iqtisadiyyatı"ndan xilas olmaq olar".

■ **Mövzu ilə bağlı hüquqşünas Əkrəm Həsənovun da qeyd edib ki, "kölgə iqtisadiyyatı" ümumilikdə həm ölkənin iqtisadi inkişafı, həm də vətəndaşlar üçün problem yaradır: "Məsələn, bəzi şirkətlər vergidən yayınmaq üçün işçilərinə əməkhaqlarının ya hamısını, ya da böyük hissəsini qeyri-rəsmi şəkildə verir.**

Belə müəssisələr maliyyə göstəricilərini dövlətdən qismən gizlədərək vergidən yayınırlar. Rəsmi şəkildə az məbləğdə maaş alan işçilərin Dövlət Sosial Müdafiə Fonduna ödədiyi məbləğ az olduğu üçün onların pensiya kapitalı lazımi qədər yığılmır. Həmin vətəndaşların gəliri rəsmi formada az göründüyündən onlar bankdan kredit və ya ipoteka krediti götürmək istəyəndə də problemlə üzləşirlər. Belə ki, vətəndaşın əslində normal aylıq gəliri rəsmi görünmədiyindən o, bankla razılığa gələ bilmir".

Onun sözlərinə görə, maaşı qeyri-rəsmi formada qeyd edilən işçilər daha sonra başqa müəssisədə işə düzələndə də onların peşəkarlığı qeyri-müəyyən qalır. Maaş göstəricisi işçinin peşəkarlığına dəlalət edir. Yəni, işçi yüksək maaş alırsa, deməli onun müəssisəyə faydası da çoxdur.

Ə.Həsənov "kölgə iqtisadiyyatı"nın digər vətəndaşlar üçün yaratdığı problemlərdən də danışıb. "Hər şeydən əvvəl vətəndaşlar "gizli iqtisadiyyat"dan əsasən istehlakçı kimi ziyan görürlər. Gəlirləri qeyri-rəsmi olan şirkətlərin satdığı mal-məhsulda, göstərdiyi xidmətlərdə problem olarsa, istehlakçı bir çox hallarda hüquqlarını müdafiə etməkdə çətinlik çəkir. Müəssisənin fəaliyyəti qeyri-rəsmidir. Ən böyük problem isə həmin şirkətlərin vergidən yayınaraq dövlət büdcəsinə ödənişləri azaltmalarındadır. Bu da bütün vətəndaşların müəyyən mənada ziyan görməsinin əsas səbəblərindən biridir. "Kölgə iqtisadiyyatı"nın həcmini hesablamaq çox çətindir. Son illərdə həyata keçirilən tədbirlər sayəsində müsbət nəticələr əldə edildiyi müşahidə olunur".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Moldova Prezidenti Maya Sandunun NATO ilə yaxınlaşma xətti respublikanın suverenliyi və təhlükəsizliyi üçün ən mənfi nəticələrə səbəb olacaq. Bu barədə "TASS"a müsahibəsində Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə ikinci departamentinin rəhbəri Aleksey Polişçuk bildirib.

■ Premyer Liqa təmsilçilərindən "Vest Hem" Türkiyə millisinin və "Qalatasaray"ın gənc ulduzunu komandaya cəlb etmək istəyir. İngilislər Barış Alper Yılmaz üçün "Qalatasaray"a yüksək məbləğ təklif edib. Premyer Liqa klubu türkiyəli ulduz üçün 35 milyon avro təklif göndərib.

■ Rusiya ən çox artilleriya sistemlərinə, eləcə də müəyyən edilmiş sursat ehtiyatlarına malikdir. Bu barədə "Forbes" jurnalı məlumat yayıb. Jurnalın məlumatına görə, Rusiya Silahlı Qüvvələri dünyanın istənilən ordusundan daha çox artilleriyaya, ABŞ Silahlı Qüvvələrindən isə üç dəfə çox artilleriyaya malikdir.



■ ABŞ Prezidenti Co Bayden öz siyasəti ilə Rusiya və Çini yaxınlaşmağa sövq edib. Bu fikirləri "Bloomberg"ə müsahibəsində Ağ Evin keçmiş sahibi Donald Tramp səsləndirib. "O, Rusiya ilə Çini evlənməyə məcbur edib. Onlar artıq ailədir", - Tramp vurğulayıb. Tramp həmçinin bildirib ki, o, sanksiyaların tərəfdarı deyil.

■ Avropa Şurasının rəhbəri Şarl Mişel bildirib ki, Kiyevin iştirakı olmadan Ukrayna ilə bağlı heç bir müzakirə aparıla bilməz. Mişel bu barədə Macarıstanın Baş naziri Viktor Orbanın məktubuna cavab olaraq bildirib. ""Ukraynasız Ukrayna ilə bağlı heç bir müzakirə aparıla bilməz", - Avropa Şurasının rəhbəri qeyd edib.

■ ABŞ Prezidenti Cozef Bayden növbəti müddət üçün prezidentliyə namizədliyini geri götürmək üçün şərtini açıqlayıb. Bayden bu barədə "BET" telekanalına müsahibəsində deyib. O bildirib ki, həkimlər sağlamlığında problem aşkarlayarsa bunu edəcək.



■ UEFA AVRO-2024-ün ən yaxşı qolu nominasiyasının adını açıqlayıb. Lamin Yamalın Fransa yığmasının qapısından keçirdiyi top qalib elan olub. O, turnirin yarımfinalında İspaniya - Fransa (2:1) matçında fərqlənib. Həsabı bərabərləşdirən gənc vunderkind komandasının finala yüksəlməsində böyük pay sahibi olub.

■ Fransa Prezidenti Emmanuel Makron partiyasının seçkilərdə məğlub olmasından sonra baş nazir Qabriel Attalın istefasını qəbul edib. Nazirlər Kabineti hələlik eyni tərkibdə fəaliyyətini davam etdirəcək. Xatırladaq ki, bir müddət öncə istefa verən Attalın müraciətini Makron qəbul etməmişdi.

# Fransız zülmündən əziyyət çəkənlər Bakıda toplaşdı

◂ əvvəli 2-ci səhifədə

Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq", - deyə o əlavə edib.

■ **Sonra çıxış edən Yeni Kaledoniya Konqresinin üzvü İzabella Kaloi vurğulayıb ki, mayın 13-dən bəri Yeni Kaledoniyada yaşananları hamı bilir.**

Azərbaycana gəlmək, bu qurultayda iştirakımızın məqsədi Fransa dövlətinin bizə qarşı aktlarının qəbuledilməz olduğunu qətiyyətlə bildirməkdir. Biz bunu sərt şəkildə qınayırıq. Burada əsasən irqçi polislərdən söhbət gedir. Yazılan hesabatlar, insanların bu barədə dedikləri hələ də reallığa çevrilmir. Nəticə olaraq insanlarımıza qarşı düzgün hərəkət edilmir, hazırkı vəziyyətdə regionda qarşıdurmalar, yanğınlar baş verir. İllərdən bəri yaranmış problemlər gündən-günə daha geniş vüsət alır. İ.Kaloi bildirib ki, bununla bağlı keçirilən tədbirlər, əlbəttə, məsələni kökündən həll etmir. "Demək istərdim ki, biz repressiyaya məruz qalmışıq. Bütün bunların yaranma səbəbi çox təəssüf ki, bizim səsvermə hüquqlarımızın ləğv edilməsidir. Bunu Fransa dövləti edib, hüquqlarımızın tapdalanması yolverilməz və qəbuledilməzdir. Biz bununla bağlı məlumat verdik, təkliflər hazırladıq və əksəriyyət də bu təklifə müsbət yanaşdı. Amma Fransa dövləti bizi dinləmək istəmədi. Ümumiyyətlə, səsvermə hüququnun dondurulması qərarı seçicilərə, mədəniyyətimizə və müqəddəratımıza qarşı olmaq deməkdir", - deyə İzabella Kaloi əlavə edib. O, qurultayın təşkilinə görə bir daha Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib.

■ **Yeni Kaledoniya parlamentinin üzvü Maria Saliqa diqqətə çatdırıb ki, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır.** Makron Fransası bütün demokratiya qaydalarına üz çevirib. Maria Saliqa qeyd edib ki, Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini xatırlayırıq. Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər. "Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür", - deyə o vurğulayıb. Müzakirələr zamanı çıxış edən digər iştirakçılar bildiriblər ki, Fransa hakimiyyəti onların öz müqəddəratını təyin etmə hüququnu tanımalı və müstəqillik proseslərini dəstəkləməlidir. Onlar müstəmləkə siyasəti nəticəsində iqtisadi və mədəni zərərlərdən bəhs edərək, yerli əhalinin hüquqlarının qorunmasının və inkişafının təmin olunmasının vacibliyini diqqətə çatdırıblar. Qurultay işini "Beynəlxalq Azadlıq Cəbhəsinin yaranması" mövzusunda müzakirələrlə davam etdirilib.

İki gün davam edəcək Qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa müstəmləkəçiliyinə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yolları barədə müzakirə aparmaq imkanı yaradacaq. Həmçinin koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək mübarizəsində ən səmərəli təcrübə və strategiyalar barədə fikirlərini bölüşəcəklər.

Qurultay koloniyalarda Fransa hökuməti tərəfindən bu ərazilərin sahibləri olan yerli xalqlara qarşı törədilən çoxsaylı cinayətlər və qeyri-qanuni hərəkətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılmasına, ümumilikdə XXI əsrin bəlalarından biri olan müstəmləkəçilik probleminə diqqət çəkməyə töhfə verəcək.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfransın iştirakçıları tərəfindən yaradılıb. Artıq bir ildir ki, Qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, Bakı Təşəbbüs Qrupu tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib.

# “Azərbaycanlılar İranda milli azlıq deyil”

***Tanınmış Azərbaycan diplomatı, 1998-2009-cu illərdə Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuş Abbasəli Həsənov hafta.az-a ilk müsahibəsində son növbədənkənar prezident seçkilərində qalib gələrək İran İslam Respublikasının 9-cu prezidenti seçilmiş Məsud Pezeşkianla dostluq münasibətlərindən, onun bir Azərbaycan türkü kimi xalqına, millətinə, Vətəninə bağlılığından, indiyədək çalışdığı hər bir postda İrana gələn Azərbaycan Respublikası vətəndaşlarının problemlərinin həlli üçün əlindən gələni etməsindən və bundan sonra da Azərbaycan-İran münasibətlərinin canlanması üçün əlindən gələni edəcəyindən danışdı. İranın türkəsilli yeni prezidentinin həmin ölkədəki soydaşlarımızla bağlı görəcəyi işlərdən, həmçinin onun xarici siyasətdə, o cümlədən Qəzzadakı İsrail-“HƏMAS” savaşının durdurulması üçün ata biləcəyi addımlardan və s. bəhs etdi...***



**Abbasəli Həsənov,**
Azərbaycan Respublikasının İran İslam Respublikasındakı keçmiş səfiri

## Müsahib

***- Abbasəli müəllim, çox güman ki, İranda çalışdığınız dövrlərdən son növbədənkənar prezident seçkilərində qalib gələrək İran İslam Respublikasının 9-cu prezidenti seçilmiş Məsud Pezeşkianla tanışlığınız olub. Onu öncə bir insan, Azərbaycan türkü kimi necə tanıyırsız?***

- İranda işlədiyim dövrdən bəri doktor Məsud Pezeşkianla dost olmuşuq, indi də dostuq və inanıram ki, dostluğumuz bundan sonra da davam edəcək. Yadımdadır ki, o, Məhəmməd Hatəminin birinci prezidentlik dövründə səhiyyə nazirinin müavini, ikinci dövründə isə yəni 2001-2005-ci illərdə səhiyyə naziri işləyib. Öncə onu deyim ki, cənab Pezeşkianın sayəsində İrana müalicə üçün gedən Azərbaycan vətəndaşlarının İranın öz vətəndaşlarına tətbiq olunan güzəştlərlə müalicə olunması və dərmanları da eyni qaydada ucuz qiymətə alması təşkil olundu. Hələ nazir müavini işlədiyi illərdə də doktor Pezeşkianın səhiyyə sahəsində Azərbaycana xeyli köməyi olmuşdur. Mən İranda səfir kimi çalışdığım dövrdə həm Səhiyyə, həm də Xarici İşlər Nazirliklərində danışıqlar apararaq həmin qurumlardan Qarabağ müharibəsini, 1 milyona yaxın qaçqınımızın olmasını, iqtisadiyyatımızın hələ oturuşmamasını nəzərə alaraq Azərbaycandan gələn xəstələr üçün güzəştli şərait yaradılmasını xahiş edirdim. Həmin vaxt müalicə üçün İrana gedənlərin sayı-hesabı yox idi. Və dediyim kimi, azərbaycanlı xəstələrin güzəştli müalicə və ucuz qiymətə dərmanla təminatı məhz doktor Pezeşkianın sayəsində təşkil edilirdi...

Bir insan olaraq Məsud Pezeşkianın bir dənə də olsun, mənfi xüsusiyyətinə rast gəlməmişəm. O istər bir insan, istərsə də bir siyasətçi kimi həmişə səmimi olub, dost kimi daim sədaqətli olub. Doktor Pezeşkian bir siyasətçi kimi həmişə cəsarətli olub, haqqı, doğru sözü deməyə özündə cəsarət tapıb. Çox misallar çəkmək olar. Məsələn, 2-3 il bundan öncə İranda baş örtüksüz görünən qadınları çox incidirdilər. Hətta Məsha Əmini adlı bir xanım geyiminin İslama uyğun olmamasından ötrü polis məntəqəsində döyülərək öldürülmüşdü. O zaman bu məsələnin araşdırılması, günahkarların müəyyən edilməsi, sağlam insanın polisə aparıldıqdan sonra oradan meyitinin çıxarılmasının səbəblərinin aydınlaşdırılması üçün hakimiyyət qarşısında qəti tələblər qoyan məhz Pezeşkian oldu. Bir sözlə, Pezeşkian haqqın, ədalətin tərəfdarı olan cəsarətli, eyni zamanda müdrik və praqmatik bir siyasətçidir. Saf və təmizdir, əli heç bir çirkaba bulaşmayıb. Xalqını, millətini, Vətənini çox sevən, özündən və ailəsindən də yüksək tutan ləyaqətli bir insandır...

Pezeşkianın əqidəcə də milliliyini isbatlayacaq bircə misal gətirəcəm. O, 2002-ci ildə rəsmən səhiyyə naziri təyin olunduqdan sonra paytaxt Tehranda onunla rəsmi görüşə getdim. Məqsədim həm də Azərbaycandan gedən xəstələrin güzəştli müalicə və dərmanlarla təmin olunması məsələsini qaldırmaq idi. Öncədən bu haqda xəbərdar etdiyimdən görüşümüzdə nazirliyin müvafiq idarələrinin rəisləri də iştirak edirdilər. Səhv etmirəmsə, 5 nazirlik əməkdaşı iştirak edirdi. Bilirdim ki, həmin vəzifəli məmurlardan 3-ü türk dilində bilmir. Qeyri-rəsmi hissədə Məsud bəylə türk dilində danışaraq bir-birimiz, dost-tanış haqda hal-əhval tutduq. Ancaq rəsmi hissədə mən fars dilində danışmağa başladım, çünki İranın dövlət dili fars dilidir. Çıxışıma başlayanda Pezeşkian məni saxlayıb soruşdu ki, dayan, qardaş, öz dilimizdə niyə danışmırsan. Cavab verdim ki, axı sizin əməkdaşların çoxu türk dilini başa düşmür, dediklərimi anlamayacaqlar- söhbəti yazıya almalıdırlar. Pezeşkian isə qətiyyətli şəkildə bildirdi ki, onlar türk dilini bilmirsə, bu, onların müşkülüdür, zəhmət çəkib türk dilini öyrənsinlər. Dedi ki, siz və mən fars dilini öyrənmişik, onlar da türk dilini öyrənsinlər. Həmin olaydan sonra Pezeşkianla bütün rəsmi görüşlərimizdə də Azərbaycan türkcəsində danışırdım...

***- Prezident seçkilərindən öncə İrandakı bəzi mətbu orqanlarında guya Məsud Pezeşkianın anasının kürd olması haqda da informasiyalar dolaşdı. Sizcə, belə məlumatlar haradan qaynaqlanır?***

- Bunlar hamısı şayiələrdir. Onun milliliyi, kökünə, soyuna bağlılığı da heç bir şübhə yarada bilməz. Pezeşkian özü seçki kampaniyası zamanı keçirdiyi görüşlərindən birində ona verilən “Siz türksünüzmü?” sualına “Mənim atam da, anam da türkdür, özüm də türkəm, övladlarım da türkdür. Və mən öz uşaqlarıma evdə fars dilində danışmağa icazə verməmişəm, həmişə yalnız türk dilində danışmışıq. Amma fars dilində öyrənmişik” cavabını verdi. Rəhmətlik Heydər Əliyevin məşhur kəlamı vardı: “Mən fəxr edirəm ki, azərbaycanlıyam...” Pezeşkian isə belə deyir: “Mən iftixar edirəm ki, azəri türküyəm...”. Yəni hər iki kəlam eyni mənanı ehtiva edir...

Amma öyrənmişəm ki, Pezeşkian kürd dilini də bilir. Bunun da səbəbi odur ki, onun doğulub boya-başa çatdığı Qərbi Azərbaycan vilayətinin Mərkəzi Urmiya ərazisində kürdlər çox yaşayır. Ola bilər ki, uşaqlıqdan qonşuluğunda-filanda kürd uşaqlar çox olub və onlarla ünsiyyət sayəsində tədricən kürd dilinə də yiyələnib. Hər hansı bir özgə dili bilmək həmin millətə mənsub olmaq demək deyil ki... Təsəvvür edirsiz, mən universitet illərində gözəl müəllimlərimizin sayəsində fars dilini mükəmməl öyrəndiyimdən artıq səfir işləyəndə barəmdə mətbuatımızda şayiə yaymışdılar ki, guya mənim anam farsdır. Göyçədə fars yaşayıb məgər?.. Onu da deyim ki, Pezeşkianın anasının guya kürd olması haqda şayiəni adını çəkmək istəmədiyim xaricdə yaşayan bir iranlı ortalığa atdı. Həmin kəs sonra da sual edib ki, Pezeşkian indiyədək azəri türkləri üçün nə edib.

> *“Həmin olaydan sonra Pezeşkianla bütün rəsmi görüşlərimizdə də Azərbaycan türkcəsində danışırdım...*

***- Necə hesab edirsiz, yenicə prezident seçilmiş və “Mənim atam da, anam da türkdür” deyən Məsud Pezeşkian İrandakı, vurğuladığınız kimi, milli çoxluq təşkil edən soydaşlarımızın on illərdir tələb etdiyi haqlarının heç olmasa bir qisminə qovuşması üçün real bir iş görə biləcəkmi?***

- Əvvəla, onu deyim ki, İrandakı orada “azəri türkləri” adlandırılan Azərbaycan türkləri adətən milli azlıq kimi qələmə verilir. Halbuki tam əksinədir. Yəni o ölkədə Azərbaycan türkləri milli çoxluq təşkil edir. Və gerçəklikdə İran İslam Respublikası əhalisinin 52 faizi, yəni yarıdan çoxu Azərbaycan türkləridir. Bu faktı İranın rəsmi şəxsləri də etiraf edir...

Səhv etmirəmsə, 2007, yaxud 2008-ci il idi. Azərbaycanın o vaxtkı rabitə naziri, akademik Əli Abbasov İrana rəsmi səfərə gəlmişdi. Nazir Tehranda bir sıra görüşlər keçirdi. Görüşlərdən biri də İran prezidentinin 1-ci müavini doktor Davidi ilə oldu. 1-ci müavin Azərbaycan-İran münasibətlərinin əhəmiyyəti, bu münasibətlərin inkişafı üçün mövcud imkanlardan daha geniş şəkildə yararlanmağın zərurəti haqqında danışdı. Sonra da bizlərin qardaş olduğunu vurğulayaraq bildirdi ki, gərək İranla Azərbaycan arasındakı əlaqələr bütün sahələrdə məhdudiyyətsiz inkişaf edə. O dedi ki, əlaqələrimiz xüsusən iqtisadiyyatın bütün sahələrində, o cümlədən rabitə sahəsində maksimum inkişaf etməlidir. Bundan sonra doktor Davudi əlavə etdi: “Bu yaxınlarda İranda əhalinin siyahıya alınması prosesi başa çatıb. Və sizə bildirmək istəyirəm ki, İran əhalisinin 100-də 52-si, başqa sözlə, 52 faizi azəri türkləridir”. Bax, bu faktı İran prezidentinin 1-ci müavininin dilindən eşitmişik. Bunu hörmətli Əli Abbasovdan da soruşa bilərsiz...

Həmin vaxtdan təxminən 3 ay sonra Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev də İrana rəsmi səfərə gəldi. Onun bütün İran Silahlı Qüvvələrinin və digər bütün güc və hüquq-mühafizə strukturlarının başında yaradılmış və birbaşa ali dini rəhbərə tabe olan Məsləhət Şurasının rəhbəri rəhmətlik Ayətullah Şahrudi ilə rəsmi görüşündə yenə də İran-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərindən danışıldı. Və söhbət zamanı Ayətullah Şahrudi də vurğuladı ki, bu yaxınlarda İranda əhalinin siyahıya alınması prosesi başa çatıb və ölkə əhalisinin 52 faizinin azəri türkləri olduğu bilinib.

Sonra da bir əlavə etdi ki, mənim kürəkənlərimdən ikisi türkdür və mən onlardan çox razıyam. Çünki onlar ailəcanlıdırlar, böyüklərə qarşı diqqətlidirlər, çalışqandırlar və s. Daha sonra Ayətullah Şahrudi yarızarafat-yarıgerçək bir fikir də işlətdi: “İran əhalisinin 100-də 52-si azəri türkləridirsə, yerdə 48 faiz qaldı, onların da yarısının bir tərəfi, yəni ya atası, ya anası türkdür. Yerdə nə qədər qaldı, 24 faiz. Həmin 24 faizin də sadəcə türk olmağından xəbəri yoxdur...

Beləliklə, bu faktları nəzərinizə çatdırdıqdan sonra demək istəyirəm ki, öncəki söhbətlərimizdə dediyim kimi, xalqını, millətini, Vətənini hədsiz dərəcədə sevən doktor Pezeşkianın yenicə seçildiyi İran prezidenti kürsüsündə də öz soydaşlarının problemlərinin həlli üçün də əlindən gələni edəcək...

***- Bilirsiz, məsələ ondadır ki, reallıqda İranda prezident vəzifəsi ikinci dərəcəli, icraedici vəzifədir. Ölkənin idarəçiliyinin, daxili və xarici siyasətinin əsas istiqamətlərini yönəldən Ali Dini rəhbərdir. Belə olan halda cənab Pezeşkian öz soydaşlarını nə qədər sevmiş olsa da, onların haqlarının qorunması istiqamətində gerçək addımlar ata biləcəkmi?***

- Sözsüz ki, cənab Məsud Pezeşkianın İrandakı prezidentliyi dövründə Konstitusiya və qanunlar çərçivəsində milli siyasət sahəsində də müəyyən islahatlar aparılacaq. Və bunları yalnız İranda yaşayan Azərbaycan türkləri deyil, digər millətlər də istəyir. Məsələn, öz ana dillərində orta və ali təhsil almaq, mətbuat, kitab nəşri, hər vilayətdə çoxluq təşkil edən etnik azlıqların doğma dillərində radio və televiziya verilişlərinin yayımlanması və s. belə tələblərdəndir...

Amma bunlarla bağlı islahatların konkret hansı məsələləri əhatə edəcəyini, ayrı-ayrı millətlərin istəklərinin nə dərəcədə təmin olunacağını indidən söyləmək çətindir. Bütün hallarda bu proses başlayacaq. Çünki illər boyudur ki, İranda, öncə də həmin ölkənin öz rəsmilərinə xitabən dediyim kimi, milli azlıq yox, milli çoxluq təşkil edən Azərbaycan türkləri deyilən haqları istəyiblər. Eyni zamanda ölkədəki digər millət nümayəndələri; kürd, ərəb, bəluc, lur və s. də eyni tələblərlə çıxış ediblər. Və yenə də deyirəm, sözsüz ki, İranda belə hüquqlar müəyyən dərəcədə təmin olunacaq...

***- Özünün açıq şəkildə dediyinə görə, nəsli-kökü ilə Azərbaycan türkü olan yeni İran prezidentinin Azərbaycan-İran münasibətlərinin yüksək səviyyəyə çatdırılması üçün əlindən gələni edəcəyinə şübhəniz varmı?***

- Pezeşkianın yeni seçildiyi Prezident kürsüsündə Azərbaycan-İran münasibətlərinin yüksək səviyyəyə çatdırılması, eləcə də İranda uzun illər əmələ ğəlmiş və artıq böyük problemlərə çevrilmiş müşküllərin, xüsusən adi insanları incidən, narahat edən sosial məsələlərin həlli üçün əlindən gələni edəcəyinə əminəm. Məsələn, ölkədə iqtisadiyyatın durumu acınacaqlı bir səviyyəyə çatıb. İnflyasiya həddən artıq çox yüksəkdir, bahaçılıqdır. Və insanlar, xüsusən də aşağı təbəqələr bundan çox əziyyət çəkirlər və mən inanıram ki, Pezeşkian öz dürüstlüyü, düzgünlüyü ilə bir sıra neqativ halların qarşısını ala biləcək. Və ölkədəki əsas sosial problemləri də həll edə biləcək...

Pezeşkianın hakimiyyətə gəlişindən sonra Azərbaycan-İran münasibətlərinin müsbət istiqamətdə inkişafı üçün, sözsüz ki, böyük imkanlar yaranıb. Biz demirik ki, Pezeşkian Azərbaycan naminə İran dövlətinə zərər gətirəcək hansısa layihəni həyata keçirəcək. Xeyr. Əvvəla, Azərbaycan tərəfindən heç vaxt birtərəfli mənafe güdən, yəni yalnız Azərbaycanın xeyrinə olan, amma İranın ziyanına olan təklif verməmişik və bu gün də verilə bilməz. Şəxsən mən Tehranda səfir kimi işləyəndə də həmişə çalışırdım ki, hər hansı bir məsələnin həlli üçün elə bir yol tapaq ki, həm Azərbaycanın, həm də İranın mənfəətləri üçün xeyirli və uğurlu olsun. İki ölkə arasındakı problemlərə bu cür yanaşanda onlar mütləq həllini tapır.

İnanıram ki, cənab Prezident İlham Əliyevin Prezident Məsud Pezeşkiana təbrik məktubu, onların telefon danışıqları və s. Azərbaycan-İran münasibətlərinə xüsusi bir oyanış, canlanma və inkişaf gətirəcək. Xüsusən də ötən il Tehranda-Azərbaycan səfirliyində baş vermiş terror aktından sonra münasibətlərimizdə meydana gəlmiş soyuqluq tədricən istiləşməyə doğru gedəcək. Bildiyiniz kimi, bu günlərdə İran paytaxtında səfirliyimiz fəaliyyətini bərpa etdi. Bu, artıq ikitərəfli münasibətlərin inkişafı üçün ən önəmli addımlardan biridir. Ümid edirəm ki, iki ölkə arasında Azərbaycan üçün də, İran üçün də mənfəət gətirəcək böyük və uğurlu layihələr həyata keçiriləcək. Buna heç bir şübhəm yoxdur...

***✍ Sultan Laçın***

## İqtisadiyyat

***Azərbaycan BRICS-nin tamhüquqlu üzvü olmaq istəyir. Bunu VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova BRİCS ölkələrinin X Parlament Forumunun plenar iclasında çıxışı zamanı deyib. O bildirib ki, Azərbaycan xarici siyasətində dialoqu, əməkdaşlığı və həmrəyliyi təşviq edir:***



# Bakının yeni hədəfi - BRICS

“Bu, ikitərəfli münasibətlərə və beynəlxalq platformalar çərçivəsində fəaliyyətə aiddir. Xüsusilə, bu, BRICS ilə əməkdaşlığa aiddir. Azərbaycan, artıq BRICS-ə qoşulmaq arzusunu ifadə edib. Parlamentlər səviyyəsində əməkdaşlığın inkişafı bu məqsədə nail olmağa kömək edəcək. Qeyd edək ki, BRICS 2006-cı ildə müxtəlif qitələrin dörd dövləti - Braziliya, Rusiya, Hindistan və Çin tərəfindən yaradılıb. 2010-cu ildə Cənubi Afrika assosiasiyaya qoşulub. Daha dörd ölkə - BƏƏ, İran, Misir və Efiopiya bu ilin əvvəlində təşkilata üzv olub. Bundan əlavə, dünyanın 20-dən çox ölkəsi assosiasiyaya üzv olmaq üçün müraciət edib. BRICS ölkələrinin əhalisi planetin əhalisinin 43 faizini, ümumdaxili məhsulu qlobal ÜDM-in 27 faizini, ticarət dövriyyələri isə dünya ticarətinin 15 faizini təşkil edir. Blombergin hesablamalarına görə, BRICS ölkələrinin dünya ÜDM-də payı 2040-cı ilə qədər 36 faizdən 45 faizə yüksələcək ki, bu da G7 ölkələrinin payından iki dəfə çoxdur. Bəzi proqnozlara görə isə, 2050-ci ildə BRICS-in hazırkı üzvlərinin ÜDM-i bütün inkişaf etmiş ölkələrin ÜDM-in 90 faizini keçəcək və bu, artıq dünyanın keyfiyyətcə fərqli mənzərəsi deməkdir. Əksər ekspertlər BRICS-i qlobal inkişafın, ticarətin və investisiyaların hərəkətverici qüvvəsi hesab edirlər. Bəs, görəsən, Azərbaycanın bu təşkilata üzv olması ölkəmizə iqtisadi cəhətdən nə qazandıra bilər?

> *“Belə bir təşkilatda iştirak, sözsüz ki, istənilən ölkənin imkanlarını genişləndirəcək. Azərbaycan da bu baxımdan istisna deyil*

> *BRICS-ə üzvlük adıçəkilən dəhlizlərin daha geniş istifadəsi üçün yeni yollar aça bilər*

■ **Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru, professor Elşad Məmmədov hesab edir ki, ölkəmizin BRICS-də iştirakı Azərbaycan iqtisadiyyatının rəqabət üstünlüklərini gücləndirməyə kömək edəcək:** “Nəzərə almaq lazımdır ki, BRICS qlobal miqyasda ən sürətlə inkişaf edən iqtisadiyyatların iştirak etdiyi və cəmləşdiyi platformadır. Bu, dünya iqtisadiyyatının və onun real sektorunun lokomotivlərinin - Çin və Hindistanın təqdim olunduğu platformadır. Bu platformada Rusiya, Braziliya və Çin iştirak etdiyi üçün ən güclü resurs potensialına malik ölkələr daxildir. Belə bir təşkilatda iştirak, sözsüz ki, istənilən ölkənin imkanlarını genişləndirəcək, Azərbaycan da bu baxımdan istisna deyil. Azərbaycanın ciddi resurs potensialına malik olduğunu başa düşmək lazımdır. Eyni zamanda, ölkənin rahat satış bazarlarına ehtiyacı var, daxili iqtisadiyyatın emal seqmentlərini inkişaf etdirmək və yüksək əlavə dəyər əldə etmək vacibdir. “Bu baxımdan BRICS çox rahat platformadır. Ancaq eyni zamanda, mən BRICS-i makroregion kimi yerləşdirmək istəməzdim, assosiasiya bunun üçün çox geniş miqyaslıdır. BRICS, əslində, hesab edirəm, iqtisadi inkişaf baxımından ən perspektivli makroregionlar arasında dialoq və əməkdaşlıq platformasıdır”.

Ekspert onu da vurğulayıb ki, BRICS-in regionlararası əməkdaşlıq üçün rahat platforma baxımından təsirli perspektivləri var və Azərbaycanın bu strukturda iştirakı daxili iqtisadiyyatın yüksək texnologiyalı emal seqmentlərini əhəmiyyətli dərəcədə stimullaşdıracaq.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov isə deyir ki, Azərbaycanın BRICS-ə qoşulmaq istəməsi təbiidir:** “Belə demək mümkündürsə, ölkəmizin buna haqqı da var. Azərbaycan təbii resurslarla zəngin, sürətlə inkişaf əldə etmiş və inkişafda olan, regionda yetərli infrastruktura sahib ölkədir. Burada söhbət, hər növ enerji resurslarını daşıya biləcək müxtəlif tranzit kəmərlərinə, eyni zamanda hava, quru və dəmiryolu nəqliyyat dəhlizlərinə sahib olmaqdan gedir”.

Onun fikrincə, əslində BRICS ölkələri Azərbaycanın bu qrupa qoşulmağında maraqlı olmalıdırlar: “BRICS-ə qoşulmaq Azərbaycana çoxsaylı imkan tanıya bilər. Bu təşkilatın üzv ölkələri çox sürətlə inkişaf edirlər. Keçən il BRICS ölkələri üzrə cəmi ÜDM qlobal ÜDM-in 35.7 faizini təşkil edib. 15 il ərzində təşkilatın qlobal iqtisadiyyatda payı 10.2 faiz artıb. G7 ölkələrinin qlobal iqtisadiyyatda payısa bu müddətdə 9.7 faiz azalıb və 29 faizə düşüb. Qeyd olunan təşkilata Rusiya, Hindistan, Çin daxildir. Bu 3 ölkəylə Azərbaycanın geniş iqtisadi və ticari əlaqələri, alış-verişi və ötürmələri, yeni daşımaları mövcuddur. Şərq-Qərb, Şimal-Cənub dəhlizləri Azərbaycana böyük iqtisadi fayda vəd edir. BRICS-ə üzvlük odur ki, bizə adı çəkilən dəhlizlərin daha geniş istifadəsi üçün yeni yollar aça bilər. Azərbaycanın BRICS-ə üzv olması sırf iqtisadi səmərə, effektlə yanaşı siyasi və s. digər istiqamətlərdə də geniş imkanlar yarada bilər”.

***✍ Sevinc***

# Neft Fondunun aktivləri artıb



***2024-cü il iyun ayının 30-na ARDNF-nin aktivləri 2024-cü ilin əvvəlinə (56 069,7 milyon ABŞ dolları) nisbətən 3,4% artaraq 58 000,6 milyon ABŞ dolları təşkil edib. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) bildirilib. 2024-cü ilin yanvar-iyun ayları ərzində ARDNF-nin büdcə gəlirləri 9 254,9 milyon manat, büdcə xərcləri isə 6 414,4 milyon manat təşkil edib.***

2024-cü ilin yanvar-iyun ayları ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 6 436,5 milyon manat, o cümlədən, mənfəət neftinin və qazın satışından 5 657,0 milyon manat, bonus ödənişləri 775,9 milyon manat, tranzit gəlirləri 0,3 min manat, akrhesabı ödənişləri 3,6 milyon manat olub. Fondun valyuta vəsaitlərinin idarə olunmasından əldə edilən investisiya gəliri 2 818,4 milyon manat təşkil edib. Hesabat dövrü ərzində ARDNF-nin 2024-cü il büdcəsinin icrası çərçivəsində 6 390,5 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. 2024-cü ilin yanvar-iyun aylarında “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın maliyyələşməsinə 5,2 milyon manat, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” nın maliyyələşməsinə isə 7,1 milyon manat yönəldilib. Sözügedən dövrdə, ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 11,6 milyon manat təşkil edib.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri hesabat dövrü üzrə 441,5 milyon manat olub.

Fondun aktivlərinin idarə edilməsindən əldə edilən gəlirlərə gəldikdə əsas töhfə səhm investisiyalarının payına düşür. İnkişaf etmiş ölkələrin iqtisadiyyatlarında yuxarı faiz dərəcələrinə baxmayaraq aşağı işsizlik dərəcələrinin qalması istehlak göstəricilərinə, o cümlədən ÜDM - nin artım tempinə müsbət təsir edib. Həmçinin, süni intellekt texnologiyasındakı irəliləmələr və bu istiqamətdə optimist gözləntilər informasiya texnologiyaları səhmlərinə əhəmiyyətli dəstək verib.

Sadalananlar əsasında cari ilin ilk yarımilində səhm bazarlarında yüksək gəlirlilik müşahidə olunub. Bazar iştirakçıları və Mərkəzi bankların uçot dərəcələri ilə bağlı gözləntilərinin tədricən uzlaşması fonunda ötən rüblərə nəzərən maliyyə bazarlarında faiz dərəcələri ilə qeyri-müəyyənlik səngiməkdədir. Nəticədə, həm dərc olunan göstəricilər, həm də proqnozlar əsasında növbəti rüblərdə uçot dərəcələrinin aşağı düşməsi gözləntiləri kapital bazarlarında nikbin mühit formalaşdırır.

# Qulağından güllələnən ABŞ demokratiyası

***ABŞ-nin keçmiş prezidenti, bu postu tutmaq üçün Respublikaçılar partiyasının əsas namizədi olan Donald Trampa qarşı sui-qəsd cəhdi beynəlxalq gündəmin əsas müzakirə mövzularından biri olaraq qalır. Əslində bu, səbəbsiz də deyil.***

Ağ ev rəhbərinin kim olacağı sualı dəqiqləşdiyi anda indiki beynəlxalq konyukturanın gələcək inkişaf proqnozları öz dəqiqliyini tapacaq. Hələlik isə sui-qəsd cəhdinin özünü demokratiyanın beşiyi adlandıraq ABŞ-də yol açdığı siyasi kataklizmlər müzakirə obyektidir. Digər ölkələrdə hansısa seçki prosesi zamanı adı belə bilinməyən namizədlərə qarşı kiçik bir qanun pozuntusunu «demokratiyaya, insan haqlarına zərbə» kimi təqdim edən Vaşinqton indi özü çıxılmaz duruma düşüb. Ölkənin birinci şəxsi adını qazanmağa ən real namizəd silahlı sui-qəsdin hədəfi olub. Sadə dildə desək ABŞ demokratiyası qulağından güllə yarası alıb.

## ABŞ cəmiyyətində düşmənçilik meyilləri artır

**Dünya mətbuatı da məlum olayın ABŞ daxilində siyasi parçalanma və şiddət meyillərinin artacağı qənaətindədir. «Liberation» nəşrinin yazdığına görə, FTB-nin xüsusi agenti deyib ki, müstəntiqlər atışmanın motivini müəyyən etmək üçün "gecə-gündüz işləyirlər". Hücumçunun motivi nə olur-olsun - siyasi və ya ruhi xəstəlik - nəticələr eyni olacaq: Amerika yeni siyasi zorakılıq və əks-zorakılıq dövrünə qərq olacaq.**

Bir müddət əvvəl sui-qəsd cəhdindən sağ çıxan Slovakiyanın Baş naziri Robert Fiko da Trampa qarşı məlum hücuma münasibət bildirib. O deyib ki, şənbə günü Amerikada eyni hadisə bir neçə ay əvvəl Slovakiyada baş verib. Fiko hesab edir ki, respublikaçı namizədə qarşı sui-qəsd Trampın düşmənlərinin planının bir hissəsi olub. "Trampın siyasi opponentləri onun ağzını bağlamağa çalışırlar. Uğursuzluğa düçar olanda hansısa zavallı adam silaha əl alana qədər ictimaiyyəti qızışdırırlar", - o, Facebook səhifəsində yazıb. Slovakiyadakı vəziyyətə toxunan Fiko ironiya ilə vurğulayıb ki, belə bir düşmən mühiti yaradan Trampa qarşı olan media və siyasi rəqibləri indi dinc dialoqun vacibliyini təbliğ etməyə başlayacaqlar.

"UnHerd" nəşrinin qənaətincə, Donald Trampa qarşı sui-qəsd cəhdi bir vaxtlar böhran dövründə liderlərinin ətrafında toplaşa bilən Amerikada siyasi parçalanmanın dərinliyini üzə çıxardı. Keçmiş prezidentin qulağından güllə yarası ilə nəticələnən hadisə, ölkədə davam edən mədəniyyət müharibəsinin ən son alovlanma nöqtəsidir, oxşar böyük hadisələrin iki partiyanın həmrəyliyinə ilham verdiyi dövrlərdən çox uzaqdır.

Politoloq Robert Liberman isə bu olayı Kennedi sui-qəsdi ilə müqayisə edib: "O an, 1968-ci ildə ölkə daxilində parçalanma indiki qədər dərin deyildi. Və burada paralellər bitməyə başlayır. Trampa sui-qəsd qütbləşmənin həyəcanverici dərəcədə intensivləşdiyi bir vaxta təsadüf edir. Bu, artıq seçki rəqibləri arasında oyun deyil. Bu, daha çox ölüm-dirim mübarizəsinə bənzəyir, burada insanlar inanırlar ki, qarşı tərəf qalib gəlsə, bu, onların dəyərlərinə və başa düşdüyü kimi ölkənin varlığına ölümcül təhlükə yaradacaq. Və bu cür qütbləşmiş siyasət ciddi zorakılıqdan uzaq deyil".

Soufan Group təhlükəsizlik konsaltinq şirkətinin tədqiqat direktoru Colin P. Clark Trampa sui-qəsd cəhdindən sonra əl-Cəzirə telekanalına verdiyi müsahibədə, mitinqdəki zorakılığın Amerika demokratiyasının indiki həddindən artıqlıqlarını "təcəssüm etdirdiyini" söyləyib.

"Son araşdırmalar göstərdi ki, amerikalılar düşündüklərindən daha az ideoloji qütbləşsələr də, getdikcə daha çox "emosional qütbləşirlər". Karnegi Beynəlxalq Sülh Fondunun baş elmi işçisi Rachel Kleinfeld tərəfindən keçən il dərc olunan təhlilə əsasən, "qarşı tərəfin üzvlərinə qarşı güclü nifrət hissi var".

Bir sıra araşdırmalar göstərir ki, son illərdə seçilmiş məmurlara və dövlət vəzifələrində çalışanlara qarşı təhdidlər artıb. Məsələn, 2021-ci il yanvarın 6-dan sonra Tramp tərəfdarları Baydenin seçki qələbəsini alt-üst etmək üçün Kapitoliyə basqın etdilər.



Bu arada, Çikaqo Universiteti tərəfindən iyunda keçirilən sorğu nəticəsində məlum olub ki, respondentlərin təxminən 7%-i Trampı prezident kimi bərpa etmək üçün güc tətbiqini dəstəklədiklərini bildirib. Digər 10% isə "Trampın yenidən prezident olmasını dayandırmaq" üçün zorakılığı dəstəklədiklərini bildirib.

Təhlükəsizlik üzrə analitik Colin P. Clark əlavə edir ki, Trampın mitinqindəki zorakılıq amerikalılar üçün birləşdirici amil ola bilsə də, "bu, çox güman ki, bölücü ola bilər". O, "çox təhlükəli siyasi mövsüm" proqnozlaşdırıb.

## Vətəndaş müharibəsi təhlükəsi

**Sui-qəsd cəhdinə hazırda Vaşinqtonla, az qala, müharibə vəziyyətində olan Rusiya siyasilərinin də fikirləri maraqlıdır.**

«Birləşmiş Ştatlar sözün əsl mənasında vətəndaş müharibəsi astanasındadır». Bu fikirləri Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin ABŞ-nin keçmiş prezidenti Donald Trampa sui-qəsd cəhdini şərh edərkən deyib.

"Uzun illər davam edən siyasəti ilə Birləşmiş Ştatlar vətəndaş müharibəsi astanasına daxil olub. Bunu sosioloji sorğular da təsdiqləyir - respondentlərin 37 %-i hesab edir ki, Bayden yenidən prezident seçilərsə, vətəndaş müharibəsi baş verəcək", - Volodin qeyd edib.

Dövlət Dumasının sədri, həmçinin Trampa sui-qəsd cəhdinə nəyin səbəb ola biləcəyini izah edən üç versiya irəli sürüb. Birinci versiya kimi Volodin Amerika siyasi sisteminin böhranına işarə edib.

Onun sözlərinə görə, ABŞ uzun müddətdir və sistemli şəkildə ölkədə siyasi və iqtisadi vəziyyətin pisləşməsi üçün ilkin şərtlər yaradıb. Volodin başqa bir versiya kimi cəmiyyət daxilində ciddi parçalanmanı hesab edir. Onun fikrincə, uzun illərdir ki, Ağ Ev amerikalıları irqi, dini və siyasi inanclara görə bir-birinə qarşı qoyub. Üçüncü ehtimal isə ABŞ-nin suveren dövlətlərin işlərinə müdaxiləsi üzərində cəmləşir. Dövlət Dumasının sədri vurğulayıb ki, ABŞ və Avropadakı siyasi opponentlər parçalanmış cəmiyyətdən öz maraqları üçün istifadə edirlər: "Bu, qəbuledilməzdir, Vaşinqton və Brüsselin daxili və xarici siyasətində köklü dəyişikliklərə ehtiyac var, əks halda Qərb böyük problemlərlə üzləşəcək".

## Ağ ev uğrunda ölümcül yarış

**Bu olaydan sonra siyasi ekspertlər Ağ ev uğrunda yarışan iki qocadan hansının daha çox şansının olduğunu da müzakirə edirlər.** Amerikalı ekspert, professor doktor Burak Küntay deyib ki, ABŞ prezidentliyinə Respublikaçılar Partiyasından namizəd Donald Trampın mitinqində ona sui-qəsd cəhdi seçkiqabağı abhavanı Ağ Evin keçmiş rəhbərinin xeyrinə dəyişib. İndiyə qədər Trampa qarşı məhkəmə qərarlarının seçkilər kontekstində çəkindirici rol oynadığını, indi isə hadisə ilə onların təsirinin azaldığını qeyd edib: «Əvvəllər məhkəmə qərarları Tramp üçün böyük problem yaradırdısa, indi vəziyyət dəyişib». Kyuntai qeyd edib ki, Baydenin debatdakı uğursuz çıxışı, Trampın guya seçkidə iştirak edə bilməyəcəyi ilə bağlı kifayət qədər inandırıcı olmayan arqumentlər, Ali Məhkəmənin eks-prezidentin toxunulmazlığı ilə bağlı qərarı, eləcə də hazırkı sui-qəsd cəhdi Respublikaçı namizədin xeyrinə olub.

"Tramp heç nə etməsə belə, oturub bundan sonra sussa belə, bu hadisələr ona yarışda ciddi təkan verib. Burada bütün sual qərarsız seçicilərin səslərinin hara gedəcəyidir", - Kuntai deyib. Əvvəllər Trampın hətta respublikaçılar arasında da çoxlu rəqiblərinin olduğunu xatırladan ekspert əlavə edib ki, indi o, heç olmasa partiyasının dəstəyini təmin edib.

"Bu, baş verənləri xüsusi səviyyəyə qaldıracaq, bir neçə həftədən sonra kəşfiyyat xidmətlərinin səhvi olduğunu söyləyəcəklər... Bəli, Trampın indi böyük üstünlüyü var, amma biz görəcəyik ki, bu, nəyə gətirib çıxaracaq", - deyə Kyuntai yekunlaşdırıb.

## Təhlükəsizlik qüvvələrinin səhlənkarlığı ehtimalı

**ABŞ-nin eks-prezidenti və prezidentliyə namizəd Donald Trampa son sui-qəsd zamanı damından atəşin açıldığı səmi 130 metr məsafədəki binanın öncədən ciddi yoxlanılmaması, şahidlərdən birinin damda şübhəli şəxsi gördüyünü söyləsə də, təhlükəsizlik qüvvələrinin bunu qulaqardına vurması haqda məlumatlar sabiq dövlət başçısının təhlükəsizliyinə cavabdeh olan Məxfi Xidmət tərəfindən səhlənkarlıq ehtimallarını da ortaya çıxarır. Bəs görəsən, belə ehtimallar nə dərəcədə həqiqətə uyğundur?**

Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu mövzu ilə bağlı hafta.az-a açıqlamasında bunları söyləyib. "İlkin məlumatlara əsaslansaq, Trampa son sui-qəsd hadisəsi zamanı, əlbəttə, təhlükəsizlik qüvvələrinin səhlənkarlığı görünür. Və qeyd etdiyiniz kimi, şahidlərdən biri damda şübhəli şəxsi gördüyünü və bunu ərazidəki mühafizə rəisinə söylədiyini, lakin onun buna laqeyd yanaşdığını da bildirir. Ola bilsin ki, doğrudan da, həmin şəxsin dediklərinə diqqət yetirməyiblər. Adətən, təhlükəsizlik qüvvələri siyasətçilərin tərəfdarlarının belə çox emosional, şübhəli davranışlarını təbii qəbul edirlər. Amma, əlbəttə, hər bir halda bu, səhlənkarlıqdır...

Məsələ burasındadır ki, ABŞ-də prezidentliyə namizədin mühafizəsini prezidenti mühafizə edən eyni xidmət həyata keçirir. Və həmin qurumun adı ingiliscə "Secret Service", yəni Məxfi Xidmətdir. Bu xidmətin əsas vəzifəsi dövlət rəsmilərinin, əsasən də prezidentin, eləcə də prezidentliyə namizədlərin mühafizəsidir. Sözüm ondadır ki, bu, kifayət qədər ciddi qurumdur. Bir sözlə, son hadisə zamanı təhlükəsizlik qüvvələrinin səhlənkarlığı haqda ittihamlar səslənir. Ancaq onların nə qədər əsaslı olmasını zaman və istintaq göstərəcək".

Həmsöhbətimiz onu da əlavə edir ki, Amerikada kimisə güllləbaran etmək, demək olar ki, adi bir haldır. və belə olaylar ölkədə, az qala, hər gün baş verir. Bunun da əsas səbəbi ondadır ki, təxminən 338 milyonluq ölkə əhalisinin əlində aralarında müxtəlif tipli, o cümlədən avtomat tüfənglərin də olduğu 400 milyondan çox silah var. "Bu amili də nəzərə alsaq, hələlik ortada olan sui-qəsdçinin hadisədən öncə özünü açıqlayaraq "Mən respublikaçıyam, amma Trampa nifrət edirəm" deməsidir. O, respublikaçıdırmı, yoxsa sadəcə icraçıdırmı, bunu artıq təhqiqat və zaman göstərəcək. Çünki hadisə mahiyyət etibarilə son dərəcə təhlükəli olduğuna görə hesab edirəm ki, istər FTB, istərsə də digər qanuni təhqiqat orqanları ətraflı araşdırmalar aparacaqlar", - deyə ekspert vurğulayır.

## Trampın seçilməsi Azərbaycanın xeyrinədir

**Politoloq Elxan Şahinoğlu bildirir ki, Donald Trampa qarşı uğursuz sui-qəsd cəhdi onun populyarlığını və prezident seçilmək şansını artırıb. Donald Trampın prezident seçilməsi beynəlxalq aləmdəki qüvvələr arasında balansa təsir etmək gücündədir.** Misal üçün Tramp Ukraynaya hərbi və maliyyə yardımının dayandırılmasının tərəfdarıdır. Ukraynaya yardımın dayandırılması müharibənin Rusiyanın xeyrinə dəyişməsi demək olacaq. Əlbəttə, Pentaqon və Dövlət Departamenti Trampı Ukraynaya dəstəyi dayandırmamağı məsləhət görəcəklər, ancaq keçmiş Ağ Ev sahibi bir sıra hallarda ətrafı ilə hesablaşmır: «Trampın Yaxın Şərq siyasəti də fərqli olacaq. ABŞ-ın hazırki Prezidenti Cozef Bayden İsrailə təsir etmək istəyir ki, Qəzza bölgəsinə hücum dayandırılsın, Fələstin amili nəzərə alınsın. Trampın belə bir dərdi yoxdur. O birmənalı şəkildə İsrailə dəstəyin tərəfdarıdır. Məhz Tramp prezidentliyi dövründə Qüdsü İsrailin paytaxtı kimi tanıyaraq səfirliyin Tel-Əvivdən köçürülməsinə qərar verdi. Bu qərar Yaxın Şərq və Avropa ölkələrində narazılıq doğrusa da, Tramp öz bildiyini etdi. Donald Trampın Çinə qarşı sərt iqtisadi siyasəti də bəllidir. O prezident seçilən kimi Çin lideri Tsi Cinpinlə görüşüb geniş fikir mübadiləsi aparsa da, bu ölkə ilə ticarət mübadiləsinin Amerikanın zərərinə olduğunu vurğuladı. Çin məhsullarına əlavə vergilər tətbiq olundu. Tramp həm də ondan narazıydı ki, ABŞ şirkətləri ucuz işçi qüvvəsinə görə zavod və fabriklərini Çində açırlar. ABŞ-ın hazırki prezidenti Cozef Bayden Donald Trampı tənqid etsə də, onun Çin siyasətini davam etdirir. Bayden administrasiyasının təlimatıyla Çin Hind və Sakit okean bölgəsində sıxışdırılır.




Bu bölgə böyük güclər arasında yeni rəqabət meydanına çevrilib. Vaşinqton NATO-nu da bölgəyə cəlb edib. Vaşinqtonda keçirilən illik sammit zamanı NATO Yaponiya, Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya ilə dörd yeni birgə layihəyə başlayacağını açıqladı. Bu arada, Vaşinqton Çində istehsal olunan yarımkeçiricilərin dünya bazarlarına çıxışını məhdudlaşdırmağa çalışır. Vaşinqtondakı rəsmilər və tədqiqatçılar bunu yeni "Çip diplomatiyasının" bir hissəsi adlandırırlar. Tramp prezident seçilərsə Çinə qarşı bu məhdudiyyətlə daha da gücləndiriləcək. Donald Trampın Cənubi Qafqaz siyasətinə gəldikdə, onun nə keçmişdə, nə də indi Amerikadakı erməni lobbisi ilə bağlılığının olmaması Azərbaycanın xeyrinədir.

Tramp ölkəsinin milli və təhlükəsizlik maraqlarına əhəmiyyət verir. ABŞ-ın milli və təhlükəsizlik maraqları isə Cənubi Qafqazın əsas dövləti Azərbaycanla əməkdaşlığı diktə edir. Azərbaycanın da iştirakçısı olduğu Orta dəhliz layihəsi birbaşa Amerikanın maraqlarına xidmət edir və ya Azərbaycanın Avropaya qaz, neft və alternativ enerji nəqli də Amerika üçün əhəmiyyətlidir. Tramp prezidentliyi dövründə bu amilləri nəzərə alacaq".

***✍ Ləman Əliyeva***



**■ ABŞ-də Andlılar məhkəməsi Demokratlar partiyasından ermənipərəst senator Robert Menendesi korrupsiya işində bütün ittihamlar üzrə təqsirli bilib. Bu barədə məlumatı "CNN" yayıb.**

Telekanalın məlumatına görə, 70 yaşlı Menendes rüşvətxorluq, qəsb, fırıldaqçılıq, xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla 16 maddə üzrə təqsirli bilinib. Məhkəmə senatorun korrupsiya sxemində iştirak etməkdə təqsirləndirilən daha iki biznesmeni də təqsirli bilib. "CNN" qeyd edib ki, qəsb və fırıldaqçılıq ittihamları hər bir maddə üzrə maksimum 20 ilə qədər həbs cəzasını nəzərdə tutur. Ümumilikdə 16 ittiham üzrə Menendesi 222 ilə qədər həbs cəzası gözləyə bilər.



**■ Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi çərçivəsində 2024-cü ilin 6 ayı ərzində Azərbaycanda 0,8 milyon ev təsərrüfatı və biznes subyektinin genişzolaqlı internetə çıxış imkanı yaradılıb.**

Ümumilikdə ölkədə 2,7 milyon təsərrüfatının genişzolaqlı internetə çıxışı təmin olunub. Nazirlikdən bildirilib ki, layihə müddətində ölkədə genişzolaqlı internetə çıxış imkanı əldə etmiş ev təsərrüfatı və biznes subyektlərinin sayı 12 dəfə artaraq 9%-dən 92%-ə yüksəlib. Cari ilin ilk 6 ayı ərzində 2020-ci illə müqayisədə 5 dəfə çox təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin edilib və toplam əhatə 26% artıb.



**■ Asiya İnkişaf Bankı (AİB) Qafqaz və Mərkəzi Asiya üçün artım proqnozunu 2024-cü ildə 4,3 %-dən 4,5 %-ə, 2025-ci ildə isə 5 %-dən 5,1%-ə artırıb. "Bu, Azərbaycan və Qırğızıstanda gözləniləndən daha güclü artımla əlaqədardır.**

Azərbaycan iqtisadiyyatı 2024-cü ilin yanvar-aprel aylarında 4,3 % böyüyüb ki, bu da dövlət xərcləri ilə dəstəklənən nəqliyyat və tikinti sahələrinin hesabına olub. Qırğızıstanın artım tempi 2024-cü ilin birinci rübündə 8,8 % təşkil edib ki, bu da yerli və xarici investisiyalarla maliyyələşdirilən xidmət və tikinti sahələrində güclü istehsalla əlaqədardır", - hesabatda bildirilir. Hesabata görə, qızıl satışı da daxil olmaqla ixracatın kəskin artması səbəbindən Tacikistan 2024-cü ilin birinci rübündə 8,2 % templə güclü artımını davam etdirib.



**■ Azərbaycan-Gürcüstan sərhədində 4.8 maqnitudalı zəlzələ olub. Hadisə ilə bağlı AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bildirib ki, Azərbaycanda hər gün zəif yeraltı təkanlar olur və bu təbii prosesdir.**

"Ölkəmizdə qeydə alınan zəlzələlərin çoxu hiss edilmir. Qorxulu nəsə yoxdur Azərbaycanda yaxın zamanlarda güclü zəlzələ gözlənilmir", - deyə Q.Yetirmişli əlavə edib.

Qeyd edək ki, bu gün səhər saatlarında Zaqatala seysmik stansiyasından 61 km cənub-qərbdə, Gürcüstan Respublikası ərazisində 5 km dərinlikdə 4.8 maqnituda zəlzələ qeydə alınıb. Zəlzələ episentrdə 4.8 bal, Ağstafa, Tovuz, Balakən, Zaqatala, Gəncə, Gədəbəy və digər rayonlarda 4-3 bala qədər hiss olunub.



**■ Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının növbəti iclası keçirilib. Bu barədə SOCAR-dan bildirilib.**

Məlumata görə, Azərbaycan Respublikasının iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun sədrliyi ilə keçirilən iclasda ilk öncə "Hasilat və İşlənmə" biznes seqmenti üzrə görülmüş işlərə, əldə olunan nəticələrə və bu istiqamətdə atılacaq addımlara dair təqdimat edilib. Daha sonra iclasda SOCAR-ın "Yeni Əməliyyat Modeli"nin icrasının hazırkı vəziyyətinə dair təqdimat dinlənilib. SOCAR-ın idarəetmə strukturunun təkmilləşdirilməsi və insan kapitalının inkişaf etdirilməsi istiqamətlərində görülən işlərin önəmi qeyd olunub.



**■ "2022-ci ilin noyabrından 2024-cü il iyulun 1-dək vətəndaşlar tərəfindən müvafiq portal üzrərindən ümumilikdə 16.329 müraciət daxil olub ki, həmin müraciətlərdən 8.563-ü üzrə 34,6 mln. manat vəsaitin ödənilməsi təmin edilib?".**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatında bildirilib. Qeyd edilib ki, bu ilin 6 ayı ərzində portal üzrərindən 2.597 müraciət daxil olub: "Həmin müraciətlərdən 1.802-si üzrə 9.2 mln. manat vəsait vətəndaşlara ödənilib, müvafiq qaydaların tələblərinə əsasən, 526 müraciət üzrə ödənişdən imtina olunub. Eyni zamanda, portal istifadəyə verildiyi tarixdən indiyədək bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən 1.398 sayda "Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə məlumat forması" təqdim edilib ki, onlardan 917-si təsdiqlənib.

# Doğum səviyyəsi azalır



“İndi olmasa da, 2040-cı ildən sonra vəziyyətin mənfiyə doğru dəyişməsi mümkündür

Adətən, təhsil səviyyəsi yüksək olan ölkələrdə doğum faizi aşağı düşür

***Bu ilin 5 ayında Azərbaycanda 41 608 yeni doğulan körpə qeydə alınıb. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, cari ilin yanvar-may aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 41 608 doğulan körpə qeydə alınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,7 faiz və ya 4 936 körpə azdır. Başqa sözlə, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11,1-dən 9,8-ə düşüb. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz olub. Körpələrdən 1390-ı əkiz, 51-i üçəm, 4-ü isə dördəm doğulub.***

## Demoqrafiya

Qeyd edək ki, rəqəmlərdən göründüyü kimi, doğulan körpələrin sayında xeyli azalma müşahidə edilir. Bəs, görəsən, doğum göstərcisinin 11,1-dən 9,8-ə düşməsi demoqrafik problemə səbəb ola bilərmi? Doğum statistikasındakı azalmanın qarşısını almaq üçün hansı addımlar atılmalıdır?

■ **Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov bildirib ki, mövcud statistika hələlik demoqrafik problem kimi görünməsə də, gələcəkdə vəziyyət dəyişə bilər:** “İndi olmasa da, 2040-cı ildən sonra vəziyyətin mənifiyə doğru dəyişməsi mümkündür. Belə bir təhlükə var ki, yaxın 15 ildə ölkəmizdə olan bu vəziyyət dəyişə bilər. Çünki son 50-60 ildə nəsilvermə əmsalı da 3 dəfə azalıb. Eyni zamanda, əhalinin cins tərkibi dəyişir. Oğlanlar bioloji normadan daha çox doğulduğu halda, qızlar az doğulur ki, bu da selektiv abortun nəticəsidir. Bütün bunlar uzunmüddətli planda Azərbaycanda demoqrafik vəziyyətə mənfi təsir göstərə bilər”.

Ekspert vurğulayıb ki, doğum sayının azalması, əhalinin yaş tərkibinin dəyişməsi, yəni yaşlı əhali sayının gənc əhalinin sayına nisbətən artması, eyni zamanda kişilərin sayının qadınlardan çox olması kimi ciddi problemlər ortaya çıxa bilər: “Ortaya çıxa biləcək mənfi təsirlərin qarşısını almaq üçün dövlət tərəfindən müəyyən işlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bununla bağlı müvafiq tədbirlər görməyi planlaşdırır.

Əslində, Azərbaycanda vəziyyət Avropa ölkələri ilə müqayisədə dəfələrlə yaxşıdır. MDB ölkələri üzrə götürəndə də nəticələr pis deyil. Məsələn, Rusiyada hər 1000 nəfərə illik artım sıfırın üzərindədir. Şərqi Avropada elə ölkə var ki, illik artım mənfi 7-8-ə çatıb. Yəni, bizdə müqayisədə yaxşıdır. Amma gələcəkdə problemlər yarana bilər. Ona görə bu gündən düşünmək lazımdır. Xüsusilə, selektiv abortların qarşısının alınması vacibdir”.

■ **Məsələyə münasibət bildirən sosioloq Əhməd Qaşəmoğlu hesab edir ki, bu artıq qlobal tendensiyaya çevrilib. Onun sözlərinə görə, beynəlxalq təşkilatlar əhalinin artım tempinin azalmasında maraqlıdır:** “Proqnozlara əsasən, 2050-ci ildə planetimizdə əhalinin sayı o qədər artacaq ki, Yer kürəsinin resursları insanlara yetməyə bilər. Mənə qalarsa, bu, yanlış proqnozdur. Alimlər Yerin potensialından düzgün istifadə yolunu tapmalıdırlar. Bu yollar tapılsa, problem yaranmayacaq. Digər bir amil isə insanların savadlılıq göstəricisi ilə bağlıdır. Adətən, təhsil səviyyəsi yüksək olan ölkələrdə doğum faizi aşağı düşür. Tendensiya belədir ki, təhsilli şəxslər çox uşaqlarının olmasını istəmirlər”.

Sosioloqun fikrincə, Azərbaycanda üçuşaqlı ailə modelinin tətbiqi yaxşı təşəbbüs ola bilər: “Azərbaycanda üçuşaqlı ailə modelinin tətbiq edilməsi çox yaxşı olar. Ailədə bir uşaq olanda ölkə əhalisinin sayı azalır. Əhalinin azalması beynəlxalq təşkilatlara xoş gələ bilər, amma ölkə üçün yaxşı perspektiv vəd etmir. Əgər əhalinin sayında azalma müşahidə olunursa, ölkəyə miqrantların axını başlayır ki, bu da həmin ölkədəki etnik tərkibi dəyişir. Etnik tərkib dəyişəndə isə xeyli problemlər yaranır. Bir çox Avropa ölkələri məhz bu problemi yaşayır. Üçuşaqlı ailə modelinin təşviqi istiqamətində yaxşı təbliğat qurmalıyıq. Sözügedən modelin uğurla tətbiq olunması üçün elmi fəaliyyət planı olmalıdır. Bu fəaliyyət planının tətbiqi üçün qaydalar işlənib-hazırlanmalıdır. Həmin məsələdə yubanırıq, bu istiqamətdə ciddi çatışmazlıqlarımız var. İnstitutlar, elmi mərkəzlər problemlə bağlı təhlillər aparmalıdırlar. Ölkəmizdə bu boşluq var. Eyni zamanda bununla bağlı dövlətin konkret fəaliyyət proqramı olmalıdır”.

Ekspert üçuşaqlı ailə modelinin təşviqi məsələsində sosial dəstək proqramlarının həyata keçirilməsini vacib sayır: “Yalnız təbliğatla nəyəsə nail olacağımıza inanmıram. Burada sosial müdafiə məsələləri var. Hər bir ölkədə bu kimi proseslər stimullaşdırılır. Axı 3 uşağı böyütmək üçün ailənin maddi imkanları da olmalıdır. Odur ki, uşaq pulunun tətbiqi mütləqdir. Uşaq təkcə valideynin deyil, həm də dövlətindir. Dövlət isə əhalinin azalmasının qarşısını almaq üçün indidən hərəkətə keçməli, konkret fəaliyyət planı hazırlamalıdır ki, sonradan daha ciddi problemlərlə qarşılaşmayaq”.

✍ **Sevinc**

Aktual



# Quru sərhədləri açılacaq?

**Quru sərhədlərin açılması məsələsi yenidən müzakirə mövzusudur. Qeyri-rəsmi məlumata görə, Azərbaycanda karantin rejimi səbəbindən 4 ildir ki, bağlı qalan quru sərhədlərinin açılması gözlənilir. Məlumatda qeyd edilir ki, hökumətin belə bir addım atması COP29-la əlaqəli olacaq. Yayılan xəbərlərdə bildirilir ki, Nazirlər Kabineti yanında Operativ Qərargah hazırda bu məsələni müzakirə edir.**

Həmin müzakirələrdə biraylıq quru sərhədlərin açılması müddəti xüsusi diqqət mərkəzindədir. Məlumatlara görə, əsasən avqust və ya sentyabr ayları üçün quru sərhədlərinin açılması nəzərdə tutulur. Ehtimal edilir ki, oktyabrın 1-dən quru sərhədləri birdəfəlik açılacaq.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Rəşad Həsənov quru sərhədlərinin uzun müddət qapalı qalmasının təhlükəsizlik və digər məsələlərlə bağlı olduğunu əsaslandırsa da, bunun mənfi elementlərinin də çox olduğunu deyib.** O qeyd edib ki, quru sərhədlərin uzun müddət bağlı qalması böyük sosial kütlələrə, onların həyat tərzinə, dolanışığına, mikro və kiçik biznesə, fərdi sahibkarlığa mənfi təsir göstərir: “Eyni zamanda ailə büdcələrinin idarə edilməsində bunun böyük təsiri var. Təxminən, 1 milyondan artıq insan, demək olar ki, sərhəd bölgələrində xırda ticarətlə öz dolanışığını təmin edirdi. Həmçinin insanlar ailə büdcəsini daha sərfəli alış-veriş etməklə daha normal idarə edə bilirdi”.

Ekspert vurğulayır ki, cəmiyyət də quru sərhədlərin açılmasını istəyir: “Bunun sosial-iqtisadi faydaları çoxdur. Olsa bilsin ki, indi bir sıra sahələrdə üstünlüklər yaransın. Xırda ticarət formasında ölkəyə mal və xidmətlərin gətilməməsi nəticədə bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dövriyyəsinin genişlənməsinə gətirib çıxarır.

Eyni zamanda ixracla məşğul olan şirkətlərin də dövriyyəsində genişlənmə baş verir. İnsanlar fərdi şəkildə öz məhsullarını gətirə bilmir. Bu da müəyyən mənada rüsumlara, vergi yığımlarına müsbət təsir edir. Ümumilikdə quru sərhədlərinin bağlı qalmasının neqativ təsirləri çox böyükdür. Ona görə də, quru sərhədləri açılmalıdır. Təhülkəsizlik məsələləri isə aidiyyatı dövlət qurumları tərəfindən çevik şəkildə idarə edilə və tənzimlənə bilər”.

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli bildirir ki, Azərbaycanın quru sərhədlərinin bağlı olması həm iqtisadi, həm imic, həm də təhlükəsizliklə bağlı dünyada söz-söhbətlər yaradaraq ölkəyə çox ciddi ziyan vurur:** “Bu məsələ həqiqətən də sona çatdırılmalıdır. Dünyada pandemiya ilə bağlı quru sərhədlərini bağlı saxlayan ölkə qalmayıb. Bizdə quru sərhədlərin bağlı olması pandemiya ilə əlaqəlidir. Ona görə də düşünürəm, indidən hazırlıq işlərinin görülməsinə ehtiyac var ki, sentyabr-oktyabr aylarından bu məsələ öz həllini tapsın. Bu turizmin canlanmasına səbəb olacaq. Pandemiyadan əvvəl Azərbaycanda turizm baxımından rekord rəqəmlər qeydə alınmışdı. Sərhədyanı ticarətin canlanması üçün də quru sərhədlərin açılması çox vacibdir. Bu həm də ölkənin daxilində rahatlıq yaradacaq”.

“Təhülkəsizlik məsələləri aidiyyəti dövlət qurumları tərəfindən çevik şəkildə idarə edilə və tənzimlənə bilər

Sərhədyanı ticarətin canlanması üçün quru sərhədlərin açılması çox vacibdir

Ekspert deyir ki, bəzi rəsmilərin açıqlamalarına görə, təhlükəsizlik məsələləri səbəbindən sərhədlərin bağlı qaldığı söylənilir və bu gərginlik yaradır: “İnsanlar düşünür ki, Azərbaycanda nə təhlükələr var ki, quru sərhədləri bağlı saxlanılır? Azərbaycan elə bölgədə yerləşir ki, həmişə təhlükələr olacaq.

Bu o demək deyil ki, quru sərhədlərini həmişə bağlı saxlamaq lazımdır. Azərbaycan ordusu, hüquq-mühafizə, xüsusi xidmət orqanları çox güclü olan ölkədir. Açıq sərhəd rejimində də Azərbaycan öz təhlükəsizliyini çox yüksək səviyyədə, tam təmin etməyə qadir ölkədir”. Ekspertin sözlərinə görə, bu baxımdan payız aylarından, elə sentyabrdan quru sərhədlərin açılması çox yaxşı olardı: “Həm də ona görə ki, Azərbaycan COP29-a ev sahibliyi edir. Çox sayda qonağın gəlməsi gözlənilir. Hətta veloyürüş də təşkil olunacaq. Yüzlərlə velosipedçi başqa ölkələrdən quru sərhəd yolu ilə Azərbaycana gəlib COP29-a dəstək vermək istəyir”.

✍ **Sevinc**



# Korrupsiyaya ilə bağlı bu il 93 cinayət işi başlanıb

**Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü ilin birinci yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə bildirilib ki, qurum tərəfindən korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması, yol verilən qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 110 təqdimat göndərilib.

Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilib və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunub.

Baş İdarənin əməliyyat qurumları tərəfindən 93 cinayət işi başlanıb, keçirilmiş 28 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 25 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 4 nəfər saxlanılıb.

# Azərbaycanda hər kəsin zövqünə uyğun əyləncə var

***Azərbaycanın yay mövsümündə cazibədarlığının sirri nədir? Bu barədə “Euronews” xəbər kanalının saytı “Azərbaycanda yay: Bakı dənizkənarı bulvarı, ləzzətli mətbəx və zəngin mədəni proqram” məqaləsində bəhs edir.***



Məqalədə qeyd edilir ki, Azərbaycanda çimərlik istirahətindən tutmuş musiqi festivallarına qədər hər kəs öz zövqünə uyğun bir əyləncə tapacaq. Yay fəaliyyətinin episentri dinamik paytaxtdır. Burada tarixi və memarlıq abidələrini kəşf etməkdən, kölgəli parklarda gəzməkdən, açıq havada konsertlərdən və dənizkənarı barlarda, habelə dam terraslarında gecə həyatından həzz ala bilərsiniz. Məqalədə deyilir: “Bakı turunuza izdihamlı Fəvvarələr meydanı ilə başlayın, sonra şəhərin mədəniyyət obyektlərinə, məsələn, Heydər Əliyev Mərkəzinə və Azərbaycan Xalça Muzeyinə baş çəkin. Primorsk bulvarı kimi tanınan ecazkar gəzinti yeri Bakı Limanından “Eurovision” mahnı müsabiqəsinin keçirildiyi “Crystal Hall” arenasının və bir çox muzeylərin yanından keçir. Bu məkan Bakı sakinləri və paytaxtın qonaqlarının ən məşhur istirahət yerlərindən biridir.

“Euronews”, həmçinin oxucuları Bakının məşhur bazarları ilə tanış edir. Müəllif bildirir ki, burada təzə məhsul və yerli ləzzətli meyvələrdən dadmaq olar, barlarda isə qonaqlara nar və heyva da daxil olmaqla, bir çox çeşiddə yerli şərablar təklif olunur. Azərbaycanın sərin dağlıq rayonlarına və meşəlik milli parklarına səyahət də az maraqlı olmayacaq, burada xalq yaradıcılığı və açıq havada istirahət həvəskarları yabanı gül çəmənlikləri, Talış dağları, UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Hirkan Milli Parkının meşələri ilə tanış olacaqlar, həmçinin Qəbələ, Lahıc, Şəki və Lerik kimi qədim orijinal şəhər və kəndləri gəzəcəklər.

“Euronews” xatırladır ki, Azərbaycan sahillərində tətil mövsümü bütün il boyu davam edir. Rahat istirahəti sevənlər, şübhəsiz ki, Xəzər dənizinin sahilində yerləşən müasir otellərdən birində qalmağa üstünlük verəcəklər, dəniz macəralarına həvəs göstərənlər isə Şorabad qəsəbəsindəki Su İdmanı Mərkəzində yaxta gəzintisinə çıxa və ya kaytsörfinq edə bilərlər. “Günəşli hava və aran ərazilərində orta temperaturun 32 dərəcə Selsi olması sayəsində Azərbaycan Avropa şəhərlərinin sakinləri üçün ideal tətil alternativdir”, - deyə məqalədə vurğulanır.

# “Bakcell” Aİ dəstəkli “Tarif Məsləhətçisi”ni təqdim etdi

***Ölkənin ən böyük özəl mobil operatoru “Bakcell” tətbiqində yeni süni intellekt (AI) dəstəkli “Tarif Məsləhətçisi” funksiyasını istifadəyə verib. Bu innovativ alət, abunəçilərin zəng və internet ehtiyaclarını nəzərə alaraq onlara ən uyğun tarif planlarını tövsiyə edir.***




Son aylarda innovativ məhsulları ilə abunəçi təcrübəsini və məmnuniyyətini daha da artıran “Bakcell”, ”Tarif Məsləhətçisi” funksiyasında qabaqcıl AI texnologiyasından istifadə edir. Abunəçilər alətdən istifadə etməklə öz tarif planlarını optimallaşdıra, həm vaxt, həm də büdcələrinə qənaət edə biləcəklər.

“Tarif Məsləhətçisi” aləti hazırda “Bakcell” tətbiqində aktivdir. Tətbiqi bu linkdən yükləmək mümkündür: https://onelink.to/-bakcell. Bu yaxınlarda yeni brend kimliyini təqdim edən “Bakcell”, abunəçilərinin gündəlik tələbatlarını ödəmək üçün daim yeni məhsullar təqdim edir. Belə ki, son həftələrdə “Bakcell” ”Fiber 1” məhsulunu və “VoWiFi” texnologiyasını istifadəçilərin ixtiyarına verib.

# Yaşıllığı az yenitikili məhəllələr

**_Bakıda sahibkarlar tez-tez binalar tiksələr də, parkların salınması istiqamətində təşəbbüslər yoxdur. Bunu Dövlət Ekoloji Ekspertiza Agentliyinin İdarə Heyətinin sədri Mirsalam Qənbərov Agentliyin keçirdiyi ictimai dinləmədə deyib. O bildirib ki, yeni yaşayış binaları salınarkən qanunvericilik nəzərə alınmalıdır: "Şəhər inkişaf edir, quruculuq işləri aparılır, ancaq bu, birtərəfli olmamalıdır. Son zamanlar, xüsusilə Bakıda tikinti işləri ilə bağlı yaşıllıqların mühafizəsində çətinliklər yaranır._**



## Cəmiyyət

Söküntü də elə yaşıllığın məhv edilməsidir. Şirkətlərin mövcud ağacların saxlanılması, hər hansı yaşıllıq və mahiyyət kəsb edən məsələlərə diqqət yetirməklə bağlı öhdəliyi var. Bu gün inkişaf birtərəfli gedir. Parkların çoxuna baxırsan, hər şeyi dövlət edir. Evi tikən də ədalətli olmalıdır. Heç olmaya binaları tikərkən park da salınsın".

Sədr vurğulayıb ki, əgər sahibkarlarla əməkdaşlıq qarşılıqlı davam etsə, bu zaman yaşıllıqlar daha çox qorunacaq. O, hüquq-mühafizə orqanlarının icazəsiz formada yaşıllıqları aradan qaldıranlara qarşı tədbirlər gördüyünü də qeyd edib.

Qeyd edək ki, bu gün yaşıllıqların kütləvi şəkildə kəsilməsi və ya götürülməsi faktları daha çox tikinti şirkətlərinin payına düşür. Əslində Azərbaycanda hələ 2019-cu ildən tikinti şirkətlərinin qarşısına yeni tələblər qoyulub. Çoxmərtəbəli bina inşa edən sahibkarlar, ərazinin 40, müstəsna hallarda 30 faizində yaşıllıq salmalıdırlar. Bu tələb "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları" nda, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində öz əksini tapsa da, tikinti maqnatları əksər hallarda buna əməl etmirlər. "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi" normalarında yaşıllıq norması 40 faizdir. Amma müstəsna hal kimi 30 faiz də götürülə bilər. Bu qayda beş il və daha əvvəl inşa olunmuş binalara aid deyil.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əmlak məsələləri üzrə eskeprt Elnur Fərzəliyev bildirib ki, 1985-ci illədək Bakı MDB və region ölkələrinin ən yaşıl şəhərlərindən biri olub. Amma hazırda Bakı sputnikdən baxdıqda boz torpaq sahəsinə bənzəyir:** "Düzdür, Bakıda son illər salınan parkların sayı artıb. Amma insanların sıx yaşadığı ərazilərdə yaşıllıq sahələri azalıb. Çünki, köhnə parkların bir hissəsi yaşayış binalarına çevrilib. Digər ərazilərdə isə parklara ağac əkmək, yaşıllıq salmaq əvəzinə mərmər döşənib. Mərmər döşəməli parklar yaşıllıqlarla əvəzlənməlidir".

Ekspert deyib ki, köhnə tikilmiş binaların həyətlərindəki ağacların isə bir qismi ömrünü başa vurub: "Onları yeniləri ilə əvəzləmirlər. Dekorativ, ekologiyaya elə bir faydası olmayan ağaclar əkilir. Əvvəllər şam ağacları əkilərdi. Bu ağacları havanı təmiz saxlamaqla



**Elnur Fərzəliyev,**
əmlak məsələləri üzrə eskeprt

yanaşı, sürüşmənin də qarşısını alırdı. Bu ağacın rişələri torpağa kök salaraq torpağı bərkidirdi, sürüşmənin qarşısını alırdı". Həmsöhbətimiz vurğulayıb ki, qəzalı binalar sökülüb yerində yeniləri inşa olunduqca bu mənzərə daha da pisləşəcək. Onun sözlərinə görə, Bakıda hələ qeydiyyatdan keçməyən yüzlərlə köhnə qəzalı bina var. Bu binaları dövlət yox, özəl tikinti şirkətləri

> “
> *Onlar tikinti zamanı əksər hallarda yaşıllıq normalarına əməl etmirlər*

sökür. Bu zaman onlar tikintiyə və sakinlərin köçürülməsinə, bina hazır olanadək kirayədə yaşamasına qoyduqları xərci çıxartmağa, gəlir əldə etməyə çalışırlar. Onlar tikinti zamanı əksər hallarda yaşıllıq normalarına əməl etmirlər: "İndi Bakıda tək-tük yaşıllıq əraziləri qalıb ki, onlar da qəbiristanlıqlardır. Bakıda ən yaşıl ərazilər "Yasamal qəbiristanlığı", Mərkəzi Nəbatat bağıdır. Digər yerlərdə isə yaşıllıqlar binaların həyətində qalan tək-tük ağaclardır".

Ekspert bildirir ki, sovet dövründə inşa olunan yaşayış binaları əhalinin sayına, yaşıllığa uyğun hesablanıb. Son illər Bakıda əhali sayı sürətlə artıb. İnsanlar üçün nəzərdə tutulan yaşıllıq əraziləri də binalarla əvəzlənib. Ona görə də yaşıllıqların sayı artırılmalıdır. Köhnə binaların həyətindəki ağacların yaxınlığından yeni ağaclar əkilməlidir ki, həmin ağaclar quruduqdan sonra yaşıllığı qoruyub saxlamaq mümkün olsun.

E. Fərzəliyev onu da qeyd eib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumu sahibkarların qarşısına yaşıllıqların salınmasını bir tələb kimi qoymalıdır: "Binalar inşa olunmazdan əvvəl çoxlu sayda dövlət qurumlarının razılığı alınır. Yaşıllıqlar da şəhərsalmanın normaları sayılır. Bina inşa edən sahibkarlardan bu normalara əməl etmək tələb olunmalıdır".

✍ *Müşfiq*

## HƏFTƏ REYTİNQ

### Həftənin ÇAĞIRIŞI



"Türkiyə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanacağına ümid edir". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Onun sözlərinə görə, Ankara İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanmasına və sülhün bərqərar olmasına çalışır: "Biz bu barışığın mümkün qədər tez olmasını istəyirik".

### Həftənin NAMİZƏDİ



Respublikaçıların ABŞ prezidentliyinə namizədi Donald Tramp Ohayo ştatından senator Ceyms Devid Vensi ABŞ vitse-prezidentliyinə namizəd kimi irəli sürüb. Bu barədə sabiq president "Truth" sosial şəbəkəsində yazıb: "Çox fikirləşdikdən sonra qərara gəldim ki, ABŞ-nin vitse-prezidenti vəzifəsində çalışacaq ən uyğun şəxs Ohayodan olan senator Ceyms Devid Vansdır".

### Həftənin İŞSİZLƏRİ



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin iki müavini vəzifəsindən azad edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı (Aran) və sədr müavini Siyavuş Heydərov Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə vəzifələrindən azad olunublar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Media və kommunikasiya şöbəsindən məlumatı təsdiqləyiblər.

### Həftənin KOMANDASI




UEFA AÇ-2024-ün rəmzi komandasını açıqlayıb. Heyətdə İspaniya millisinin 6, Fransa yığmasının 2, İsveçrə, Almaniya və İngiltərə komandalarının isə hərəyə 1 futbolçusu yer alıb. Qapıçı: Mayk Menyan (Fransa); Müdafiəçilər: Kayl Uoker (İngiltərə), Manuel Akanji (İsveçrə), Uilyam Saliba (Fransa), Mark Kukurelya (İspaniya); Yarımmüdafiəçilər: Rodri, Daniel Olmo, Fabian Ruis (hamısı İspaniya); Hücumçular: Lamin Yamal, Niko Uilyams (hər ikisi İspaniya), Camal Musiala (Almaniya).

### Həftənin İDDİASI



Gürcüstan Prezidenti Salome Zurabişvili "Xarici təsirin şəffaflığı haqqında" qanunla bağlı ölkənin Konstitusiya Məhkəməsində iddia qaldırıb. Bu barədə məlumatı Gürcüstan dövlət başçısının parlament katibi Georgi Msxiladze açıqlayıb. "Gürcüstan Prezidenti ilk dəfə ölkənin Konstitusiya Məhkəməsində iddia qaldırıb. İddia "xarici təsirin şəffaflığı haqqında" qanuna aiddir. Sözügedən qanun Konstitusiyaya uyğun gəlmir", - deyə katib qeyd edib.

### Həftənin TƏQDİMATI



Fransa millisinin hücumçusu Kilian Mbappe "Real Madrid" klubu ilə müqavilə imzalayıb. Klub "Santyaqo Bernabeu" stadionunda forvard üçün təntənəli təqdimat mərasimi keçirib. Mərasimdə 75.000-dən çox tamaşaçı və "Real"ın sabiq baş məşqçisi Zinəddin Zidan iştirak ediblər. Futbolçu ilə 5 illik müqavilə imzalanıb. O, klubda 9 nömrəli formada çıxış edəcək.

✍ *Azad Əliyev*

# "Nar" qəbul imtahanlarının bitməsi münasibətilə abituriyentləri təbrik edir

***Universitetlərə qəbul imtahanlarında yüksək bal toplayan tələbələr "Nar"dan xüsusi hədiyyələrlə təltif olunacaqlar. "Nar" onların güclü əzm və çalışqanlıqlarını qiymətləndirməklə gənc istedadların akademik təhsilin yeni mərhələsinə böyük həvəslə başlamalarına dəstək olur və bu təşəbbüsün gələcək abituriyentlər üçün də müsbət nümunə olacağına inanır.***

İlin abituriyentlərinə ən müasir smartfon, "Nar" nömrə və 700 AZN dəyərində balans hədiyyə edərək "Nar" onların universitet həyatına tam hazır başlamalarını təmin edir. Bu təşəbbüs "Nar"ın Azərbaycan gənclərinin təhsilə marağının artırılmasındakı dəyərli töhfəsini vurğulayır. BMT-nin dayanıqlılıq məqsədlərinə uyğun olaraq təhsil "Nar"ın Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasının mərkəzi sütunlarından biridir.

"Nar"ın gerçəkləşdirdiyi layihə və təşəbbüsləri haqqında ətraflı məlumat almaq üçün nar.az saytına daxil olun.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir və son 5 ildir ki, Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




## GÜNÜN FOTOSU



**Ukrayna ilə Rusiya arasında növbəti əsir mübadiləsi**

> “
## "Kölgə iqtisadiyyatı"na qarşı mübarizə

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Son illərdə büdcəyə daxil olan vəsaitlərin proqnozlaşdırılandan 2 milyard manat çox olması "kölgə iqtisadiyyatı"nın həcminin azaldılması ilə birbaşa əlaqədardır.

▸▸ Səh. 4

## STATİSTİKA



■ **2024-cü ilin yanvar-iyun aylarında fərdi uçot sistemində qeydə alınan sığortaedənlərin sayı 46 985 vahid və ya 2,33% artaraq 2,056 mln. vahid təşkil edib.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, qeydə alınan sığortaedənlərin sayı hüquqi şəxslər üzrə 7 376, fiziki şəxslər üzrə 32 858, torpaq mülkiyyətçiləri üzrə isə 6 751 vahid artıb.



▸▸ Səh. 7

# Doğum səviyyəsi azalır